21 noyabr 2018 №85 (1575) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Əsərləri ilə milli özünüdərkə çağıran ədib

## Xalq yazıçısı İsa Muğannanın 90 illik yubileyi qeyd edildi

Noyabrın 20-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı İsa Muğannanın (Hüseynov) anadan olmasının 90 illik yubileyi qeyd edildi.

Tədbir iştirakçıları əvvəlcə filarmoniyanın foyesində ədibin müxtəlif dövrlərdə nəşr olunmuş kitablarından ibarət sərgi ilə tanış oldular.

Yubiley gecəsində çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev İsa Muğannanın 90 illiyinin Prezident İlham Əliyevin sərəncamı ilə qeyd olunduğunu diqqətə çatdırdı. Bildirdi ki, sərəncamın icrası ilə əlaqədar Mədəniyyət Nazirliyi tərəfindən, müvafiq qurumların təklifləri nəzərə alınmaqla, hazırlanan tədbirlər planı üzrə il ərzində paytaxtda və regionlarda, həmçinin nazirliyin qatıldığı beynəlxalq kitab sərgilərində İsa Muğannanın yubileyi qeyd edilib.

Vaqif Əliyev görkəmli yazıçının həyat və fəaliyyətindən bəhs edərək dedi ki, ədəbiyyatda öz dəst-xətti olan İsa Muğanna bütün şüurlu həyatını bədii söz sənətinə həsr etmiş nadir şəxsiyyətlərdəndir. Altmış ildən artıq müddətdə ədəbi fəaliyyətlə məşğul olan mütəfəkkir yazıçının milli özünüdərkə çağıran çoxsaylı əsərləri eyni zamanda ana dilinə həssas yanaşmanın və onun poetik imkanlarından yüksək sənətkarlıqla bəhrələnmənin qiymətli nümunəsidir.

Bildirildi ki, ədibin yaxın-uzaq keçmişimizin mənzərəsini hadisələrə özünəməxsus yanaşma və fərqli düşüncə tərzi sayəsində daha dolğun canlandıran silsilə roman və povestləri ədəbiyyatımızın məzmunca yeniləşməsində müstəsna əhəmiyyətə malikdir.

Yazıçının "Dan ulduzu", "Tütək səsi", "Teleqram", "Saz" povestləri, "Doğma və yad adamlar", "Yanar ürək", "İdeal", "Məhşər", "Qəbiristan" və s. romanları Azərbaycan nəsrinini qiymətli inciləridir. "İdeal" romanı isə "Ədəbiyyatımızın Dostoyevskisi" adlandırılan İsa Muğannanın yaradıcılığında yeni səhifə açıb və böyük rezonans doğurub. Bu əsərdə Azərbaycan xalqının ulu tarixi kökləri ilə müasir mənəvi problemləri vahid süjet xəttində ustalıqla birləşdirilib.

*davamı səh. 2-də*




## Azərbaycan 2020-ci ildə Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun fəxri qonağı olacaq

Dünyanın mədəniyyət sahəsində ən əhatəli tədbiri sayılan Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumu 2020-ci ildə Azərbaycanı "fəxri qonaq ölkə" statusunda qəbul edəcək. Bu, 14-17 noyabr tarixində gerçəkləşən VII Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun bizim üçün mühüm yekunlarından biridir.

Forumda mədəniyyət naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə ölkəmizdən geniş nümayəndə heyəti iştirak edib. Noyabrın 16-da Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayevlə Rusiya Federasiyasının mədəniyyət naziri Vladimir Medinski arasında ikitərəfli görüş keçirilib. Görüşdən sonra tərəflər Azərbaycanın 2020-ci ildə Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda "fəxri qonaq ölkə" statusunda təmsil olunması haqqında Birgə bəyanat imzalayıblar.

*davamı səh. 3-də*

## Moskvada "Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı" keçirilib

Noyabrın 19-da Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə Moskvada "Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı" başlanıb.

Layihə böyük Azərbaycan şairi və mütəfəkkiri, dahi söz ustadlarından biri olan İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığının təbliği və iki ölkə arasında mədəni-ədəbi əlaqələrin genişləndirilməsi məqsədi daşıyır. Xatırladaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə sentyabrın 27-30-da Azərbaycanda ilk dəfə "Nəsimi – şeir, sənət və mənəviyyat festivalı" keçirilib.



Rusiya paytaxtındakı festival çərçivəsində ilk olaraq Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) şairin büstünün təntənəli açılış mərasimi oldu. Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxış etdi.

O, Moskvada böyük şair, mütəfəkkir Nəsimiyə həsr olunmuş tədbirin əhəmiyyətini vurğulayaraq bildirdi ki, Nəsimi Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynayıb, əsərləri ilə Azərbaycan ədəbi dilinin formalaşmasına mühüm töhfələr verib: "Nəsimi poeziyası müasir dövrümüzdə də yaşayır və aktualdır. Bu ilin sentyabrında Azərbaycanda ilk dəfə Nəsimiyə həsr edilmiş mənəvi-poetik yaradıcılıq festivalı keçirilib. Nəsimi fəlsəfəsi o qədər dərindir ki, sonsuzluğu qavramağa, insan şüurunun ən dərin qatlarına nüfuz etməyə və bir çox hadisələri yozmağa qabildir. Biz son dərəcə minnətdarıq və şadıq ki, bu gün Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun binasında bu dahi insanın büstünü açırıq. Çünki bizim vəzifələrimizdən və arzularımızdan biri budur ki, Nəsimini tanısınlar, onun poeziyasını oxusunlar və bu poeziya yaşasın. Həqiqət zamanın fövqündə dayanan anlayışdır. Nəsiminin tükənməz ilham mənbəyi gözəllik, məhəbbət və təbiətdir".

*davamı səh. 3-də*



## London səhnəsində "Leyli və Məcnun"un konsert təqdimatı

*səh. 8*

## Ölkəmiz Çində beynəlxalq mədəni sənaye sərgisində təmsil olunub

14-17 noyabr tarixində Çin Xalq Respublikasının (ÇXR) Xaynan əyalətinin Sanya şəhərində 3-cü Beynəlxalq Mədəni Sənaye Yarmarkası keçirilib.

Tədbirdə ölkəmizi təmsil etmək üçün Mədəniyyət Nazirliyinin Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin müdiri Vüqar Şixəmmədovun rəhbərliyi ilə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının üzvlərindən, xalq dekorativ-tətbiqi və təsviri sənət ustalarından ibarət qrup Çinə ezam edilib.

Müxtəlif xalqlar arasında mədəni mübadiləni təşviq etməklə ölkələrarası əlaqələrə töhfə vermək məqsədi daşıyan yarmarkada Mədəniyyət Nazirliyi və Azərbaycanın ÇXR-dəki səfirliyi tərəfindən ölkəmizin stendi təşkil edilib.

Tədbirin ilk günü Sanya şəhəri və layihə haqqında təqdimat keçirilib.

Noyabrın 15-də keçirilən açılış mərasimində Sanya şəhərinin meri A Dun müxtəlif ölkələrdən gələn iştirakçıları salamlayaraq tədbirin mədəni sahədə münasibətlərin, turizm əlaqələrinin inkişafına təkan verəcəyinə ümidvar olduğunu deyib.




*davamı səh. 5-də*

## "Start"ın sonu

### Beynəlxalq qısa filmlər festivalı başa çatdı

Noyabrın 17-də Beynəlxalq Muğam Mərkəzində IX "START" Beynəlxalq Qısa Filmlər Festivalının bağlanış mərasimi keçirildi.

Festival ölkə başçısının "Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında" sərəncamının icrası ilə bağlı tədbirlər çərçivəsində Mədəniyyət, Gənclər və İdman nazirlikləri və "Sinema" Gənc Kinematoqrafçılar Mərkəzinin təşkilatçılığı ilə reallaşıb. Gənclər Fondu, Azərbaycan Prodüserlər Gildiyası, Nizami Kino Mərkəzi və "CinemaPlus" kinoteatrlar şəbəkəsi festivala təşkilati dəstək verib.

Mərasimdə çıxış edən "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov festivalın gənc kinematoqrafçılara stimul verdiyini diqqətə çatdırdı. O, ölkəmizdə bu cür layihələrin genişlənməsinin vacibliyindən danışaraq, gənclərin müxtəlif ölkələrdən olan həmkarlarının işləri ilə tanış olması, fikir mübadiləsi aparması baxımından festivalın önəmini qeyd etdi.

*davamı səh. 8-də*

## Milli xalça sənətimizi dünyaya tanıdan sənətkar

Xalça Muzeyində Azərbaycan xalça sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınmasının ildönümünə və Xalq rəssamı, professor Lətif Kərimovun doğum gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Lətif Kərimov haqqında lentə alınmış telefilm nümayiş etdirilib, musiqi proqramı təqdim olunub.

*səh. 6*

Sənət tapıntı ilə başlayır...



*səh. 4*

Nyu-Yorkda BMT-nin Sivilizasiyalar Alyansının 8-ci Qlobal Forumu keçirilib

*səh. 2*



Qəmli bir eşq hekayəsi...

*səh. 7*

№85 (1575)
21 noyabr 2018
www.medeniyyet.az

# Dialoqa sadiqlik və davamlı sülh naminə əməkdaşlıq

## Mədəniyyət naziri BMT-nin Sivilizasiyalar Alyansının 8-ci Qlobal Forumunda iştirak edib

Mədəniyyət naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti 19-20 noyabr tarixində ABŞ-ın Nyu-York şəhərində keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 8-ci Qlobal Forumunda iştirak edib. Nümayəndə heyətinin tərkibinə ölkəmizin BMT yanında daimi nümayəndəsi, səfir Yaşar Əliyev və Mədəniyyət Nazirliyinin Aparatı rəhbərinin müavini – nazirliyin Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə daxildir.

"Dialoqa sadiqlik. Qarşısıalınma və davamlı sülh naminə əməkdaşlıq" şüarı altında gerçəkləşən forumun əsas məqsədi ölkələr, xalqlar və icmalar arasında sülh və əmin-amanlığın möhkəmləndirilməsi üçün bütün resursların səfərbər edilməsi və dünyada son illər sürətlə artan ayrı-seçkilik, irqçilik, ksenofobiya, müxtəlifliyə dözümsüzlük fonunda dialoqa və sülhə sadiqliyi vurğulamaqdır.

Qlobal Forumun noyabrın 19-da keçirilən açılış mərasimində BMT-nin baş katibi Antonio Quterreş, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir, BMT Baş Assambleyasının prezidenti, Türkiyənin xarici işlər naziri, İspaniya və Qətərin xarici işlər üzrə dövlət nazirləri çıxış ediblər.





Forumda nazir Əbülfəs Qarayevin Azərbaycanın beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqa verdiyi töhfələr, cari ildə "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd edilməsi mövzusunda çıxış edib.

Məlumat üçün qeyd edək ki, dünyanın 147 ölkəsindən 4 mindən artıq nümayəndənin iştirak etdiyi BMT-nin Sivilizasiyalar Alyansının "İnklüziv cəmiyyətlərdə birgəyaşayış: çağırış və məqsəd" şüarı altında 7-ci Qlobal Forumu 2016-cı ilin 25-27 aprel tarixində Bakıda keçirilib.

* * *

Mədəniyyət naziri Əbülfəs Qarayev Nyu-Yorka səfəri çərçivəsində bir sıra görüşlər keçirib.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir ilə görüşdə qurumun dünya miqyasında həyata keçirdiyi fəaliyyət, alyansın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bakı prosesi" təşəbbüsünün və Dünya Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaşı olması barədə fikir mübadiləsi aparılıb.

Nasir Əbdüləziz Əl-Nasir ölkə rəhbərliyinin bu istiqamətdə təşəbbüslərini yüksək qiymətləndirdiyini, tərəfdaşlığın əhəmiyyətini, eləcə də 2016-cı ildə Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun beynəlxalq səviyyədə müsbət əks-səda yaratdığını qeyd edib.

Əbülfəs Qarayev 2019-cu ildə Bakıda keçiriləcək 5-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumuna hazırlığın başladığını və forumun işində BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığın davam etdiriləcəyini diqqətə çatdırıb.

* * *

Əbülfəs Qarayev Nyu-Yorkda İspaniyanın keçmiş xarici işlər naziri, 2019-cu ilin yanvar ayından etibarən BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi kimi fəaliyyət göstərəcək Migel Angel Moratinos ilə görüşüb.

Moratinosa fəaliyyətində uğurlar arzu edən nazir "Bakı Prosesi" çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansı ilə birgə tədbirlərin təşkilinə hazır olduğunu bildirib.

M.Moratinos 2016-cı ildə Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumundan bəhs edərək Azərbaycanın beynəlxalq miqyasda mədəniyyətlərarası dialoq sahəsində fəaliyyəti barədə məlumatlı olduğunu və yeni vəzifəsinə başladıqdan sonra ən qısa vaxtda Azərbaycana səfər etmək istədiyini deyib.

Sonra 2019-cu ildə birgə həyata keçirilə biləcək layihələr barədə fikir mübadiləsi aparılıb.

# Əsərləri ilə milli özünüdərkə çağıran ədib

## Xalq yazıçısı İsa Muğannanın 90 illik yubileyi qeyd olundu

əvvəli səh. 1-də

Diqqətə çatdırıldı ki, Mədəniyyət Nazirliyi tərəfindən İsa Muğannanın "Seçilmiş əsərləri" 6 cilddə çap olunaraq oxuculara təqdim edilib.

Vurğulandı ki, İsa Muğanna, eyni zamanda Azərbaycan kinematoqrafiyasının "qızıl fond"una daxil olmuş unudulmaz filmlərin bir çoxunun ssenari müəllifi kimi tanınır. Onun əsərləri əsasında çəkilən və xalqımızın yetirdiyi tarixi simaların ömür yolundan bəhs edən kinofilmlər sənətsevərlər tərəfindən indi də rəğbətlə qarşılanır. Tarixi gerçəkliklərin obrazlı təcəssümünə çevrilmiş həmin ekran əsərləri milli kino xəzinəsində özünəməxsus yer tutur. Onun ssenariləri əsasında tamaşaçıların yaddaşında dərin izlər buraxan "Nəsimi", "Nizami", "Tütək səsi", "Ulduzlar sönmür" və s. filmlər çəkilib.

Vaqif Əliyev qeyd etdi ki, dövlətimiz tərəfindən xalqımızın mənəvi sərvətlərinin qorunması və təbliğinə hər zaman xüsusi diqqət göstərilir. Azərbaycan ədəbiyyatı klassiklərinin, həmçinin yeni dövrün görkəmli şair və yazıçılarının əsərlərinin nəşri, ölkəmizin hüdudlarından kənarda təbliği, yubiley




mərasimlərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi istiqamətində tədbirlər bunun nümunəsidir. Azərbaycan öz mədəniyyəti, incəsənəti ilə dünyada tanınır, xalqımız mədəni-mənəvi dəyərləri ilə dünya mədəniyyətinə öz töhfəsini verir. UNESCO səviyyəsində görkəmli ziyalılarımızın, o cümlədən yazıçıların, şairlərin yubileyləri qeyd olunur. Bütün bunlar xalqımızın mədəniyyətinin, o cümlədən ədəbiyyatının dünyada təbliğidir.

Bildirildi ki, Azərbaycan ədəbiyyatının inkişafında xüsusi rolu olan yazıçı və şairlərin fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Görkəmli yazıçı İsa Muğanna çoxillik bədii yaradıcılığına görə respublikanın "Əməkdar incəsənət xadimi", "Xalq yazıçısı" fəxri adlarına layiq görülüb, Azərbaycanın ali dövlət mükafatlarından olan "İstiqlal" ordeni ilə təltif edilib.

Mərasimdə Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi ədibin zəngin yaradıcılığından bəhs edərək onun Azərbaycan ədəbi mühitinin formalaşmasında xidmətlərindən danışdı. Qeyd etdi ki, İsa Muğannanın yaradıcılığı hər zaman öz aktuallığını qoruyub saxlayacaq: "O, XX əsr Azərbaycan realist ədəbiyyatının inkişafında böyük




xidmətləri olan ədibdir. İsa Muğanna öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında yeni səhifə açıb".

Sonra ədibin həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olundu, ssenari müəllifi olduğu ekran əsərlərindən fraqmentlər göstərildi.

Yubiley gecəsi daha sonra konsert proqramı ilə davam etdi.

**FARİZ**

# Nazirliyin tabeliyində Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi yaradılıb

Azərbaycan Respublikasının Nazirlər Kabineti 16 noyabr 2018-ci il tarixdə Mədəniyyət Nazirliyinin tabeliyində Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin yaradılması haqqında qərar qəbul edib.

Qərara əsasən, Mədəniyyət Nazirliyinin təklifi ilə nazirliyin tabeliyində olan Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz və Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzi ləğv edilərək, onların əsasında yeni qurum yaradılıb. Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi işçilərinin say həddi 94 ştat vahidi müəyyən edilib.

Mədəniyyət Nazirliyinə bir ay müddətində mərkəzin Əsasnaməsini və strukturunu təsdiq etmək, qərardan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

# Dünya İrs Komitəsinin xüsusi işçi qrupunun iclası

Parisdə UNESCO-nun mənzil-qərargahında Dünya İrs Komitəsinin xüsusi işçi qrupunun ilk iclası keçirilib.



Azərbaycanın sədrliyi ilə keçirilmiş iclası ölkəmizin UNESCO yanında daimi nümayəndəliyinin rəhbəri, səfir Anar Kərimov açıb. O, ölkəmizi İrs Komitəsinin sədri seçdiklərinə görə komitə üzvlərinə təşəkkürünü bildirib. Qeyd edib ki, ölkəmizin 2019-cu ildə İrs Komitəsinin növbəti sessiyasına uğurla ev sahibliyi edəcəyinə əmindir. Səfir ölkəmizdə mədəni irsin mühafizəsi sahəsində görülən işlərdən danışıb.

Tədbirdə UNESCO İrs Mərkəzinin direktoru xanım Meçdild Rossler xüsusi işçi qrupunun fəaliyyəti ilə bağlı məlumat verib. Bildirilib ki, qrup Dünya İrs Komitəsinin gələn il Bakıda keçiriləcək 43-cü sessiyasına hazırlıq məqsədilə təsis edilib.

Qeyd edək ki, xüsusi işçi qrupun yaradılması haqqında qərar Dünya İrs Komitəsinin Bəhreyndə keçirilmiş sonuncu sessiyası zamanı qəbul edilib. Bu qrupun mandatına 1972-ci il UNESCO Konvensiyasının səmərəli şəkildə icra edilməsi və nominasiya prosesləri sahəsində islahatlarla bağlı məsələlər daxildir.

# Yarımçıq qalmış ömürlərin xatirəsi

Noyabrın 20-də Azərbaycan İstiqlal Muzeyində Laçın Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə birgə "Yarımçıq qalmış ömür" adlı tədbir-sərgi keçirildi.

Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirildi. Şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edildi.

İstiqlal Muzeyinin direktoru Fəridə Şəmsi tədbiri açaraq ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin qəhrəmanlığından danışdı. Qeyd etdi ki, şəhidlərimizin ömür yolu hər bir azərbaycanlı gənc üçün örnəkdir. Torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından keçən vətən övladları arasında Laçın rayonundan da igid oğullar var. Şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq hər birimizin vətəndaşlıq borcudur.

Laçın Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Türkanə Nuriyeva çıxış edərək





bildirdi ki, Ermənistanın ölkəmizə qarşı müharibəsi zamanı Laçın rayonunda gedən döyüşlərdə 267 nəfər şəhid olub, 5 nəfər Milli Qəhrəman adına layiq görülüb.

Tədbir-sərgi ərəfəsində muzeyin əməkdaşlarının respublikamızın müxtəlif şəhər, rayon, qəsəbə və kəndlərində məskunlaşmış laçınlı şəhid ailələri ilə görüşdüklərini bildirən T.Nuriyeva dedi: "Təəssüf ki, hamısı ilə görüşə bilmədik. Məqsədimiz sərgi-tədbirdə şəhidlərimizin şəxsi əşyalarını nümayiş etdirmək və onların ruhlarını yad etməkdir".

Diqqətə çatdırıldı ki, bugünkü tədbir-sərgidə Laçın döyüşlərində şəhid olmuş Milli Qəhrəman Oqtay Güləliyev, şəhidlər Rüstəm Mirzəyev, Oruc İlham, Bəbirə Ələkbərova, İmanə Həsənquliyev və digərlərinə məxsus 95 ədəd əşya nümayiş etdirilir.

Tədbirdə Ağcabədi Regional Mədəniyyət İdarəsinin Laçın rayonu üzrə məsləhətçisi Asif Əliyev və "Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Faiq İsmayılovun da çıxışları dinlənildi.

Çıxışlardan sonra tədbir iştirakçıları muzeydə təşkil edilən sərgi ilə tanış oldular.

**S.FƏRƏCOV**

# "Şəki, mən səni sevirəm"

## Rasim Ocaqovun 85 illiyi ilə bağlı müsabiqəyə yekun vurulub

Görkəmli kinorejissor, kinooperator, Xalq artisti Rasim Ocaqovun 85 illik yubileyi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının keçirdiyi "Şəki, mən səni sevirəm" adlı müsabiqənin nəticələri açıqlanıb.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqından bildiriblər ki, "Ən yaxşı bədii film" nominasiyasında rejissor Tahir Əliyevin "Xalisin arzuları",



"Ən yaxşı sənədli film" nominasiyasında isə Zamin Məmmədovun "Şəbəkə" filmi qalib olub. Foto nominasiyasında Nigar Pirimovanın "Qədim Şəki" fotosu mükafat qazanıb.

Daha üç iştirakçı münsiflər heyətinin xüsusi mükafatına layiq görülüb.

Mükafatlar noyabrın 24-də Şəki şəhərində Rasim Ocaqovun 85 illik yubileyinə həsr olunmuş təntənəli gecədə təqdim olunacaq.

**LALƏ**

# Türk filmləri həftəsi

Noyabrın 23-dən 27-dək Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Yerli Düşüncə Dərnəyinin layihəsi əsasında Bakıda IV Türk film həftəsi keçiriləcək.

Nizami Kino Mərkəzində reallaşacaq layihə çərçivəsində 5 türk filmi beş gün ərzində 9 dəfə izləyicilərə pulsuz təqdim olunacaq.

Filmlərin nümayişindən sonra türkiyəli rejissorlarla, filmdə rol almış aktyorlarla izləyicilərin görüşü nəzərdə tutulur.

Film həftəsi noyabrın 23-də "Güllər" filminin qala-gecəsi ilə başlanacaq.

# Azərbaycan 2020-ci ildə Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun fəxri qonağı olacaq

*əvvəli səh. 1-də*

“Fəxri qonaq” statusu forum müddətində ölkənin mədəniyyətinin təbliği üçün geniş imkanlar yaradır. Builki forumun “fəxri qonaq”ları İtaliya və Qətər tədbir çərçivəsində xüsusi proqramlar təqdim ediblər.

Birgə bəyanatın imzalanması mərasimində iştirak edən Rusiya Federasiyası Hökuməti sədrinin müavini Olqa Qolodets, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, həmçinin iki ölkənin mədəniyyət nazirləri çıxış edərək bu razılaşmanın önəmini vurğulayıb, ölkələrimiz arasında, bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələrin yüksək səviyyəli inkişafından məmnunluqlarını ifadə ediblər.

RF Baş nazirinin müavini Olqa Qolodes beş il bundan əvvəl bu nüfuzlu məkanın necə görünməsini xatırlayaraq deyib: “Birinci forum cəmi 70 iştirakçısı olan kiçik bir diskussiyaya oxşayırdı. Bu gün isə forum mədəni trendlərin müzakirəsi üçün dünyada ən yaxşı məkandır”. Qeyd edək ki, builki foruma dünyanın 150 ölkəsindən 35 mindən çox nümayəndə qatılıb.

### Mədəni irsin təqdimatı üçün mühüm fürsət

Forumda “fəxri qonaq” statusu həm məsuliyyət, həm də xalqlar arasında humanitar əməkdaşlığın vacibliyi barədə dostcasına niyyətlərin bəyan edilməsi üçün imkan deməkdir. RF mədəniyyət naziri Vladimir Medinskinin



sözlərinə görə, son 4 ildə mədəni tədbirlərdə iştirak edən rusiyalıların sayı 30 faiz artıb. Qonşu ölkədə mədəniyyətə marağın daim artması şəraitində Peterburq Forumunun fəxri qonağı statusu ölkənin mədəni irsini, incəsənətini ən yaxşı cəhətdən göstərmək üçün çox mühüm vasitədir.

Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev imzalanma mərasimində çıxış edərək deyib: “Biz şadıq ki, forumun fəxri qonağı olacağıq. Bu, ölkəmiz üçün çox mühüm məqamdır, çünki biz Rusiya ilə qarşılıqlı mədəni əlaqələrə çox böyük diqqət yetiririk, iki ölkənin məktəbləri, teatrları, muzeyləri arasında əməkdaşlıq barədə müqavilələrin, müştərək layihələrin sayı daim artır. Bizim incəsənət xadimlərinin çoxu Peterburq forumu çərçivəsində özünü göstərmək imkanını səbirsizliklə gözləyir”.

Rusiya-Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri, RF Dövlət Dumasının deputatı Dmitri Savelyev hesab edir ki, Sankt-Peterburqda iki ölkənin mədəniyyət nazirləri tərəfindən imzalanmış saziş prezidentlər Vladimir Putin və İlham Əliyevin bu yaxınlarda keçirilmiş görüşünün nəticəsidir. O deyib: “Dövlətlərimizin başçıları Rusiya və Azərbaycan xalqları arasında humanitar əlaqələrin möhkəmlənməsində maraqlıdırlar, çünki məhz bu əlaqələr insanların bir-birini daha yaxşı anlamasına kömək edir. Əminəm ki, 2020-ci ildə Azərbaycan bizi heyrətləndirəcək: bu respublikada “Eurovision” mahnı müsabiqəsindən başlamış I Avropa Oyunlarına qədər müxtəlif tədbirlərin necə yüksək səviyyədə təşkil olunmasını hamımız bilirik. Deməli, iki ildən sonra Peterburqu çoxlu xoş sürprizlər gözləyir”.

### Bədii təhsil məktəbləri arasında əlaqələr möhkəmlənir

Noyabrın 16-da mədəniyyət naziri Əbülfəs Qarayev və ölkəmizin Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Sankt-Peterburq şəhərinin bir sıra mədəniyyət təsisatlarının rəhbərləri ilə görüşlər keçiriblər. Belə görüşlərdən biri şəhərin aparıcı bədii təhsil müəssisələrindən olan Sankt-Peterburq Musiqi Liseyinin direktoru Vitali Romanovla olub.

Sözügedən liseylə Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbi arasında 2018-ci ilin aprelində Bakıda əməkdaşlıq müqaviləsi imzalanıb. Liseyin nümayəndə heyəti paytaxtımızda qonaq olmuş və bir neçə səhnədə, o cümlədən M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında konsert proqramı ilə çıxış etmişdi.

Mədəniyyət naziri Əbülfəs Qarayev və səfir Polad Bülbüloğlu ilə görüş zamanı Vitali Romanov liseyin fəaliyyəti, tədris prosesində istifadə olunan müasir metodika və texnologiyaların tətbiqi, liseyin maliyyələşmə sistemi və əldə etdiyi uğurlar haqqında məlumat verib.

Nazir ölkəmizin bədii təhsil müəssisələrinin beynəlxalq əlaqələrinin, o cümlədən Rusiya Federasiyasının aparıcı təhsil müəssisələri ilə əməkdaşlığın inkişaf etdirilməsinin təqdirəlayiq hal olduğunu və bu əlaqələrin ölkələrimiz arasında humanitar sahədə münasibətlərə töhfə verdiyini diqqətə çatdırıb.

Görüşdə Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin direktoru, nümayəndə heyətinin üzvü Əziz Qarayusifli də iştirak edib. Sonra o, Sankt-Peterburq Musiqi Liseyinə gələrək, tədris ocağının fəaliyyəti ilə yaxından tanış olub.

# Moskvada “Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı” keçirilib






*əvvəli səh. 1-də*

Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru Anatoli Torkunova, universitetin digər məsul şəxslərinə və Nəsiminin büstünün müəllifi Mahmud Rüstəmova təşəkkürünü bildirdi. Sonra öz şeirini oxudu.

MDBMİ-nin rektoru, akademik Anatoli Torkunov çıxış edərək bildirdi ki, Nəsiminin büstünün qoyulması universitet üçün böyük şərəfdir: “Öz böyük sələflərinin, o cümlədən İmadəddin Nəsiminin irsinə - çox güclü mədəni təbəqəyə söykənən Azərbaycan bu gün də mədəni inkişaf yolu ilə durmadan sürətlə irəliləyir. Azərbaycanda olan hər kəs bunu etiraf edə bilər. Mən görürəm ki, respublikada böyük dəyişikliklər, o cümlədən Azərbaycan xalqının topladığı tarixi irsə münasibətdə dəyişikliklər baş verir. Bizim üçün tamamilə aydın məsələdir ki, Nəsimi dünya poeziyasının ən mükəmməl nümunələri arasında yer tutmağa layiq olan əsərlərində həmişə ilk növbədə insanın böyüklüyünü, bəşəri sevgini və şəxsiyyət azadlığını tərənnüm edib. Nəsiminin yaradıcılığı Azərbaycan xalqının və bir sıra digər xalqların bədii-ictimai təfəkkürünün inkişafına böyük təsir göstərib və göstərməkdədir”.

Ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu bu nüfuzlu təhsil ocağında Azərbaycanın böyük şairi, mütəfəkkiri və filosofunun büstünün qoyulmasının əhəmiyyətini vurğuladı. Diplomat büstün yaradılmasına görə Heydər Əliyev Fonduna və heykəltəraşa təşəkkürünü ifa edərək dedi ki, bizim üçün bu universitet çox dəyərlidir, çünki ümummilli liderimiz, böyük dövlət xadimi Heydər Əliyev və prezidentimiz İlham Əliyev bu ali təhsil ocağının fəxri doktorlarıdır. Bugünkü tədbirin Azərbaycanla Rusiya arasında sarsılmaz dostluğun daha bir təsdiqi olduğunu vurğulayan Polad Bülbüloğlu universitetin rəhbərliyinə, müəllim və professor heyətinə uğurlar arzuladı.

Açılış mərasimində Yevgeni Vaxtanqov adına Moskva Dövlət Akademik Teatrının aktyoru Eldar Tramov tarzən Qorxmaz Axundovun müşayiəti ilə Nəsiminin şeirlərini oxudu.

* * *




Həmin gün “Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı” çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunda “Nəsiminin mənəvi irsi Orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində” mövzusunda beynəlxalq elmi-praktik konfransın açılışı oldu. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva konfransın açılışında iştirak etdi.

İnstitutun direktoru İqor Abılqaziyev çıxış edərək bildirdi ki, Azərbaycan xalqının ümummilli lideri, Azərbaycan və Sovet İttifaqının böyük dövlət xadimi Heydər Əliyev Nəsimi irsinin populyarlaşmasında bilavasitə iştirak edib. Onun təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub. Nəsiminin əsərləri dünya poeziyasının mükəmməl nümunələrindən biridir. Böyük şairin irsi Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələdir. Azərbaycan poeziyasının humanizm ideyaları ilə zənginləşməsində və yeni məzmun kəsb etməsində də unudulmaz şairin xidmətləri ölçüyəgəlməzdir”.

Festivalın Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi ilə keçirildiyini diqqətə çatdıran direktor layihənin bu institutda gerçəkləşməsinə görə təşəkkürünü bildirdi.

Səfir Polad Bülbüloğlu qeyd etdi ki, Nəsimi ideologiyasının əsasını təşkil edən dəyərlər indi də müasirdir. Nəsimiyə həsr olunmuş konfransın məhz Azərbaycan dilinin tədris olunduğu bu institutda keçirilməsinin də diqqətəlayiq olduğunu vurğulayan diplomat dedi: “Biz fəxr edirik ki, sizin tələbələriniz Azərbaycan dilini öyrənirlər və bu dildə yetərincə yaxşı danışırlar. Mən Azərbaycan dilini öyrənən tələbələrə böyük uğurlar arzulayıram”.

Sonra tələbələr Nəsiminin şeirlərini müxtəlif dillərdə oxudular, Azərbaycan bəstəkarlarının mahnılarını ifa etdilər. Rejissor Namiq Ağayevin quruluşu əsasında Azərbaycan aktyorlarının ifasında “Mərhəba” adlı musiqili-poetik tamaşa təqdim edildi. Tamaşanın bəstəkarı Rüfət Xəlilov, xoreoqrafı Rumiyyə Ağayeva, prodüseri isə Vasif Ayan idi. Tamaşa böyük maraqla qarşılandı.

Qeyd edək ki, konfransın bədii hissəsini M.V.Lomonosov adına MDU-nun Asiya və Afrika Ölkələri İnstitutunun Orta Asiya və Qafqaz xalqları kafedrasının müdiri Jibek Sızdıkovanın rəhbərliyi ilə kafedra əməkdaşları hazırlamışdı. Nəsiminin şeirləri də məhz bu kafedrada Azərbaycan dilini öyrənən tələbələr ifa edirdi.

* * *

Noyabrın 20-də konfrans işini davam etdirdi. Konfransda “Nəsimi festivalı: ideoloji-mədəni irsin dinamik interpretasiyası təcrübəsi”, “Nəsimi və Yan Qus. Şərqlə Qərbin mədəni vəhdəti”, “Nəsimi dili – dünən, bu gün və sabah” və s. mövzularda məruzələr dinlənildi.

**Mehparə SULTANOVA**
**Moskva**

# “Qara Qarayevin kino musiqisi” kitabının təqdimatı



Noyabrın 16-da Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) sənətşünaslıq üzrə fəlsəfə doktoru, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) professoru Nailə Mehdiyevanın “Qara Qarayevin kino musiqisi” kitabının (rus dilində) təqdimatı keçirildi. Bəstəkarın 100 illik yubileyi münasibətilə hazırlanan kitab “Şərq-Qərb” nəşriyyatında işıq üzü görüb.

Tədbiri Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə açaraq Qara Qarayevin yaradıcılığından, onun dünya musiqisinə bəxş etdiyi töhfələrdən danışdı. Bildirdi ki, yaradıcılığı zəngin milli köklərə bağlı olan dahi sənətkar Azərbaycan musiqisinin yeni mərhələdə inkişafını təmin edib: “Biz Qara Qarayevin tələbələri olaraq onun qoyduğu şərəfli missiyanı davam etdirməyə çalışırıq”.




Diqqətə çatdırıldı ki, Qara Qarayevin 100 illiyi ilə bağlı ölkə başçısının sərəncamına uyğun olaraq silsilə tədbirlər keçirilir, Bakıda bəstəkarın ev-muzeyi açılıb. Bildirildi ki, dünya şöhrətli bəstəkarın əsərləri hələ onun sağlığında ölkəmizin hüdudlarından çox uzaqlarda yayılıb. Onun “Yeddi gözəl” və “İldırımlı yollarla” baletləri dünyanın bir sıra ölkələrində uğurla nümayiş olunub.

Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, professor Cəlal Abbasov çıxışında görkəmli bəstəkarla bağlı xatirələrini bölüşdü: “Qara Qarayevlə ilk görüşüm Moskva şəhərində, Bəstəkarlar evində olub. O, mənə dedi ki, gətir görüm hansı əsərləri yazmısan. Skripka və fortepiano üçün yazdığım sonatanı təqdim etdim. Diqqətlə qulaq asdı və dedi: “Bəstəkar milliliyə çox fikir verməlidir. Yəni hər bir bəstəkar milli musiqinin dərin qatlarına nüfuz etməli, oradan bəhrələnməlidir. İnsan dağda-daşda yaşayırsa, dağdan, meşədə yaşayırsa, ağacdan ev tikir...”.

Tədbirdə daha sonra ABİ-nin katibi Aliyə Məmmədova “Qara Qarayevin həyat və yaradıcılıq paralelləri”, musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natalya Dadaşova “Nailə Mehdiyevanın “Qara Qarayevin kino musiqisi” kitabı haqqında”, musiqişünas, sənətşünaslıq elmləri doktoru, professor Cəmilə Həsənova “Nailə Mehdiyevanın elmi-pedaqoji fəaliyyəti”, bəstəkar, BMA-nın doktorantı İlahə İsrafilova “Qara Qarayev bugünkü gənclərin təəssüratında” mövzularında məruzə etdilər.

Çıxışlardan sonra BMA-nın I kurs tələbəsi Səbinə Eldarlı, G.Şaroyev adına 35 saylı Musiqi məktəbinin XI sinif şagirdi Səmra Həsənli Qara Qarayevin əsərlərini səsləndirdilər.

**Savalan FƏRƏCOV**

## Gürcüstanın teatr xadimləri Sumqayıt teatrında

Sumqayıt Dövlət Dram Teatrı xarici ölkə teatrları ilə təcrübə mübadiləsinə xüsusi önəm verir. Xəbər verdiyimiz kimi, Kutaisi Dövlət Peşəkar Dram və Sumqayıt Dövlət Dram teatrları arasında əməkdaşlıq memorandumu imzalanıb.



Gürcüstan Respublikası Teatr Xadimləri Cəmiyyətinin sədri, Gürcüstan mədəniyyət nazirinin müşaviri Georgi Geqoçkori və Lado Mesxişvili adına Kutaisi Dövlət Peşəkar Dram Teatrının bədii rəhbəri Konstantin Abaşidze Sumqayıt teatrının direktoru Mübariz Həmidovla görüşdükdən sonra truppa üzvləri və sənət ocağındakı şəraitlə tanış olublar.

Memorandum iki teatrın ildə bir dəfə qarşılıqlı qastrol səfərləri, ümumi yaradıcılıq layihələrinin gerçəkləşdirilməsi, rejissor mübadiləsi və müştərək tamaşaların hazırlanması nəzərdə tutulur.

## MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibi ilə görüş

Noyabrın 16-da Sankt-Peterburq şəhərinə səfəri çərçivəsində mədəniyyət naziri Əbülfəs Qarayev ümummilli lider Heydər Əliyevin şəhərdəki Qoroxovo küçəsi 6 saylı binanın fasadına vurulmuş barelyefinin önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad edib. Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov naziri müşayiət edib.

Ulu öndər 1949-1950-ci illərdə bu binada yerləşən SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Ali Məktəbində təhsil alıb. Xatirə lövhəsinin açılışı 2013-cü il dekabrın 12-də keçirilib.

Daha sonra nazir Tavriçeski Sarayına gələrək MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının baş katibi Yuri Osipov ilə görüşüb. Yuri Osipov naziri səmimi salamlayaraq bildirib ki, Parlamentlərarası Assambleya Sankt-Peterburqda yerləşən yeganə beynəlxalq təşkilatdır. Assambleya tarixi binada yerləşir, Tavriçeski Sarayı ötən əsrin əvvəlində Rusiya İmperiyasının ilk Dövlət Dumasının binası olub.

Nazir Əbülfəs Qarayev səmimi qəbula görə təşəkkürünü bildirərək ölkəmizin bu beynəlxalq təşkilatla əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayıb, mədəniyyət sahəsində layihələrdə xüsusilə maraqlı olduğumuzu diqqətə çatdırıb. Kitabxana, mədəniyyət evləri, digər mədəniyyət obyektlərinin fəaliyyəti ilə bağlı ölkələrimizin keçmişdə oxşar təcrübəyə malik olduğunu deyən nazir 2019-cu ilin MDB-də "Kitab ili" elan olunmasının əhəmiyyətini vurğulayıb. Bu çərçivədə kitabxanaların müasirləşdirilməsi ilə bağlı təcrübə mübadiləsinin vacibliyi qeyd edilib. Həmçinin gənc yazarların ümumi nəşrinin hazırlanıb çap edilməsi təklif edilib.

Görüşdə MDB Parlamentlərarası Assambleyası Şurası baş katibinin müavini, Azərbaycan Milli Məclisinin təşkilatdakı nümayəndəsi Aydın Cəfərov iştirak edib.

Azərbaycan nümayəndə heyəti üçün Tavriçeski Sarayının tarixi ilə bağlı qısa ekskursiya da təşkil edilib.

Nazir Əbülfəs Qarayev Sankt-Peterburqda Rusiya Dövlət Ermitajını da ziyarət edib.

# "Cümhuriyyət 100 il" mövzusunda rəsm müsabiqəsinə yekun vurulub

"Azərbaycan Xalq Cümhuriyyəti ili" çərçivəsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən orta ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən "Cümhuriyyət 100 il" vətənpərvərlik mövzusunda rəsm müsabiqəsinə noyabrın 20-də yekun vurulub.



Nizami Kino Mərkəzində müsabiqə iştirakçılarının əsərlərindən ibarət sərginin açılışı və qaliblərin təltif olunması mərasimi keçirilib.

Tədbir iştirakçıları əvvəlcə məktəblilərin nümayiş etdirilən rəsm əsərləri ilə tanış olublar.

Tədbirin rəsmi hissəsində çıxış edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov diqqətə çatdırıb ki, ümumrespublika rəsm müsabiqəsinə 500-dən artıq rəsm əsəri təqdim edilib, onlardan 100-ü seçilərək sərgiyə buraxılıb. O, müsabiqənin bütün iştirakçılarına, müəllimlərə və valideynlərə minnətdarlığını bildirərək vurğulayıb ki, sərgidə nümayiş olunan hər bir rəsm əsəri vətənpərvər nəslin yetişdiyini sübut edir.

Mədəniyyət nazirinin müavini Rafiq Bayramov sərgidə əl işləri nümayiş etdirilən uşaq və gənclərə təbriklərini çatdıraraq bildirib ki, Prezident İlham Əliyevin sərəncamına əsasən 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunması şanlı tarixi keçmişimizə, Cümhuriyyətə göstərilən böyük ehtiramdır. R.Bayramov müsabiqənin yeniyetmə və gənclərin yaradıcılıq potensialının daha da inkişaf etdirilməsinə yaxşı stimul verəcəyinə əminliyini ifadə edərək sərginin məktəblilər üçün gözəl başlanğıc olduğunu bildirib. O, Cümhuriyyətin yubileyi münasibətilə həyata keçirilən bu cür tədbirlərin ölkəmizdə vətənpərvərlik ruhunun yüksəldilməsi, mədəniyyətimizin inkişafı və təbliği baxımından əhəmiyyətini vurğulayıb.

Sonra müsabiqənin qaliblərinin mükafatlandırılması olub. Nizami rayon 214 saylı tam orta məktəbin şagirdi Humay Səfərzadə 1-ci, Sabunçu rayon 4 saylı orta məktəbin şagirdi Fərid Tanrıverdiyev 2-ci, Balakən rayon M.P.Vaqif adına Tülü kənd 1 saylı orta məktəbin şagirdi Alvina Bayramlı 3-cü yerə layiq görülüb.

Qaliblərə diplom və mükafatlar təqdim edilib. Daha 10 iştirakçı həvəsləndirici diplomlara layiq görülüb.



# Sənət tapıntı ilə başlayır...

Olsun ki, Azərbaycanda peşəkar sənətşünas və rəssamlardan başqa az adam Portuqaliya incəsənəti, xüsusən də müasir təsviri sənəti haqqında geniş məlumatlı ola. Dünya mədəniyyətinə inteqrasiya qarşılıqlı prosesdir. O cümlədən informasiya mübadiləsində. Odur ki, mədəni dəyərlərə yaxın oxuculara deyirik: bu barədə məlumat boşluğunu doldurmaq üçün yaxşı fürsət var. Paytaxtdakı Muzey Mərkəzində tanınmış Portuqaliya rəssamı Karloş Motanın fərdi sərgisi nümayiş olunur.

Noyabrın 16-da sərginin açılış mərasimində çıxış edən Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Fikrət Babayev hər kəsi salamlayaraq tədbirin əhəmiyyətini diqqətə çatdırdı. Bildirdi ki, bu sərgi Portuqaliya deyərkən hər şeydən öncə futbol haqqında düşünən azərbaycanlılar üçün Pireney yarımadasının mədəni mühiti barədə nələrisə öyrənmək imkanıdır.

Portuqaliyanın ölkəmizdəki müvəqqəti işlər vəkili Jorge Qabriel Silva da Fonseka tanınmış rəssam Karloş Motanın Bakıdakı sərgisinin açılmasına dəstək göstərdikləri üçün Mədəniyyət Nazirliyinə, Portuqaliyanın Azərbaycandakı fəxri konsulu Murad Rəhimova, sərgiyə hazırlıqda əməyi keçən Muzey Mərkəzinin əməkdaşlarına minnətdarlığını bildirdi. Qeyd etdi ki, belə sərgilər ölkələrin mədəniyyətlərinin yaxınlaşmasına, insanların bir-birini yaxından tanımasına kömək edir, ölkələrimizin əməkdaşlığına töhfə verir.

Rəssam Karloş Mota sərginin təşkilatçılarına və qonaqlarına təşəkkür etdi, əsərlərinin Bakıda, memarlıq nümunəsi sayıla biləcək belə bir binada sərgilənməsindən məmnun olduğunu dedi.

Sərgiyə çox maraqlı ad verilib: "Found and findings". İngilis dilində təxminən "Tapılmışlar və tapıntılar" mənasını verən sərgidə təqdim edilən lövhələri, sözün həqiqi mənasında, tapıntı hesab etmək olar. Əvvələn, ona görə ki, rəssam standart boyalarla, standart mövzu və janrlarda işləmir.



O, əsərlərini təbii mineralların ovuntusundan alınan boyalarla, hətta meyvə və tərəvəz şirəsi ilə çəkir. Üstəlik, onun lövhələri üçün impressionist və sürrealist duyğuların, bəzən də absurd düşüncənin kətan üzərində izharı xasdır. Yaxından ötəri nəzər saldıqda bir-birini xaotik əvəzləyən boya yaxması təsiri bağışlayan, bəziləri hətta geniş sərgi salonu üçün də nəhəng görünən lövhələri anlamaq üçün onları uzaqdan diqqətlə seyr etmək gərəkdir. Tamaşaçılarına xəyala dalmaq, təxəyyülünü çalışdırmaq imkanı verən bu lövhələr təkcə çağdaş dövrün təsviri sənət meyillərini anlatmır. Bu lövhələr öz interyerində daha çox minimalizmə üstünlük verən geniş məkanları bəzəmək, həm də mənalandırmaq üçün nəzərdə tutulub.

Görünür, Karloş Motanın məhz interyer memarlığı üzrə təhsil alması onun yaradıcılıq istiqamətinə təsirsiz ötüşməyib. Lissabonda yaşayan tanınmış rəssamın əsərləri öz ölkəsindən başqa, İspaniya, İtaliya, Belçika, Almaniya, Hollandiya, Danimarka, Meksika, ABŞ, Kanada və Braziliyada nümayiş edilib, məşhur muzey və şəxsi kolleksiyalarda saxlanılır.

Onun yaradıcılığının ilk – 1993-2002-ci illər mərhələsi haqqında «Ruhun sərgüzəşti» adlı sənədli film də çəkilib. Rəssam ötən il MAC Müasir İncəsənət Hərəkatının «Rəssamlıqda 30 illik karyera» mükafatına layiq görülüb.

Fürsət tapıb sərginin qonaqları ilə şəkil çəkdirən, gənc rəssamlar, sənət həvəsliləri ilə söhbət edən Karloş Mota ilə təəssüratımızı bölüşüb, ayaqüstü söhbət edirik.

**- Cənab Mota, sizin tablolarınıza əsasən iki rəng hakimdir: qırmızı və yaşıl. Bu, nə ilə bağlıdır: məhz bu rəngləri çox sevməyinizlə, yoxsa Portuqaliya bayrağına bəslənilən ehtiramdan?**

- Əsasən Braziliyada işləyirəm. Braziliya təkcə ilham mənbəyim deyil. Mən bu ölkədə çıxan minerallardan alınan təbii rənglərdən istifadə edirəm. Odur ki, rəng seçimim məhduddur: qırmızı, yaşıl, açıq boz. Əgər bu seçim sizdə Portuqaliyanın dövlət bayrağının rəngləri ilə assosiasiya olunursa, buna yalnız sevinə bilərəm.

**- Siz sanki insanın düşüncəsini çəkirsiniz. Portretlərinizi portretdən daha çox insan düşüncəsinin, ruhunun şəkli adlandırmaq olar… Üstəlik, tablolarınızda qırmızı rəng, xüsusilə insan təsvirlərinin baş nahiyəsində boldur. Bunu necə başa düşək?**

- Mənim əsas məqsədim öz işlərimlə insanlarda assosiasiya doğurmaqdır. Bu assosiasiya müharibə, azadlıq uğrunda mübarizə, çiçək gözəlliyi ilə bağlı ola bilər. Yəni hər kəs öz düşüncəsinə cavabdehdir. Mənim çəkdiklərimdə nəyi görmək, hiss etmək artıq tamaşaçının öz seçimidir.

**- Artıq neçə gündür ki, Bakıdasınız. Bakının memarlıq üslubu, qədim və müasir şəhər barədə sənətçi olaraq nə deyə bilərsiniz…**

- Bakı mənim üçün yeni bir şəhərdir. Bir neçə günlük təəssüratımı belə ifadə edə bilərəm ki, Bakı rəssamların çalışmasından ötrü çox gözəl məkandır. Memar olduğum üçün əlavə edə bilərəm ki, Bakı mənim kəşfimdir.

* * *

Portuqaliya rəssamı Karloş Motanın Muzey Mərkəzində sərgisi noyabrın 23-dək davam edəcək.

**Gülcahan MİRMƏMMƏD**

# Azərbaycan nümayəndə heyəti Sankt-Peterburq forumunda yaxından iştirak edib

Xəbər verdiyimiz kimi, 15-17 noyabr tarixində keçirilən VII Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunda Azərbaycandan mədəniyyət naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə geniş nümayəndə heyəti iştirak edib. Nümayəndə heyətinin üzvləri forumun müxtəlif toplantılarına qatılıb, işgüzar görüşlər keçirib, əməkdaşlıq məsələlərini müzakirə ediblər.

* * *

Forum çərçivəsində noyabrın 16-da keçirilən "Mədəniyyət və gənclik" adlı konfrans və sessiyada Mədəniyyət Nazirliyinin Elm və tədqiqatlar sektorunun müdiri Vüqar Baxışov iştirak edib. Beynəlxalq Delfi Komitəsi, Rusiya Mədəniyyət İşçilərinin Yaradıcılıq İttifaqı və Sankt-Peterburq Gənclər Sarayının təşkil etdiyi tədbirdə nümayəndələr öz ölkələrinin mədəniyyət siyasəti, o cümlədən bədii təhsil, gənclər siyasəti ilə bağlı təqdimatlar ediblər.

V.Baxışov "Azərbaycan Respublikasında bədii təhsil gənclər siyasəti kontekstində" mövzusu üzrə təqdimatla çıxış edib. O, ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətinin istiqamətləri, bu sahədə qəbul olunan Dövlət Proqramı və Strategiyası, digər qanunvericilik aktları, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı və gerçəkləşən tədbirlər haqqında məlumat verib. Bundan başqa, sektor müdiri ölkəmizin bədii təhsil sistemi haqqında danışıb.







Tədbirdə nazirliyin nümayəndə heyətinin üzvləri – Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzin direktoru Asif Usubəliyev və Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin direktoru Əziz Qarayusifli də iştirak edib.

* * *

Azərbaycan Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova forum çərçivəsində "Muzeylər və kolleksiyaların əlçatanlığı", "Mədəniyyətə sərmayələr", "Muzeylər və qanun", "Mədəniyyətdə brendlər: şəxsi brenddən ölkənin təqdimatınadək" sessiyalarında iştirak edib.

Xalça Muzeyinin direktoru həmçinin forum çərçivəsində Sənətkarlıq konqresinə qatılıb. Rusiya nümayəndəsi ilə Azərbaycanın gələn il konqresdə iştirakı məsələsi müzakirə edilib.

Şirin Məlikovanın Sankt-Peterburqdakı Rusiya Etnoqrafiya Muzeyinin direktoru ilə görüşündə 2019-2020-ci illər üzrə planlar müzakirə olunub. Qeyd edək ki, bu muzeylə Azərbaycan Xalça Muzeyi arasında əməkdaşlıq müqaviləsi var.

Moskva Biennalesinin direktoru ilə görüşdə isə Moskvanın bu məşhur sərgi meydançasında Azərbaycan Xalça Muzeyinin kolleksiyasından nümunələrin sərgisinin təşkili imkanları müzakirə olunub.

* * *

Forum çərçivəsində Azərbaycan Dövlət Rəssamlıq Akademiyası (ADRA) və İ.Repin adına Sankt-Peterburq Akademik Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutu arasında əməkdaşlıq sazişi imzalanıb. Sənədi ADRA-nın rektoru, Xalq rəssamı, akademik Ömər Eldarov və İ.Repin adına institutun rektoru, Rusiya Rəssamlıq Akademiyasının akademiki Semyon Mixaylovski imzalayıblar. İmzalanma mərasimində Rusiya Federasiyası Hökuməti sədrinin müavini Olqa Qolodets iştirak edib.

Qeyd edək ki, oktyabrın 26-da VI Bakı Beynəlxalq Humanitar Forumunun fəxri qonağı olan Olqa Qolodets Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını ziyarət etmişdi. Qonağa 2000-ci ildə ümummilli lider Heydər Əliyevin fərmanı ilə yaradılan akademiya haqqında ətraflı məlumat verilmişdi. Tədris prosesi, akademik təhsilin səviyyəsi ilə tanış olan O.Qolodets ADRA rəhbərliyini Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumuna dəvət etmişdi.

İmzalanan əməkdaşlıq sazişi qarşılıqlı təcrübə mübadiləsi, tələbə mübadiləsi, birgə tədbirlərin keçirilməsi və digər məsələləri əhatə edir. Azərbaycan nümayəndə heyəti Repin adına institutu ziyarət edərək tədris ocağının fəaliyyəti ilə də tanış olub.

* * *

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor Siyavuş Kərimi forumun sessiyasında çıxışı zamanı rəhbərlik etdiyi təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumat verib. Diqqətə çatdırıb ki, Azərbaycan musiqi sənəti muğam və aşıq sənəti üzərində təşəkkül tapıb və 2000-ci ildə ümummilli lider Heydər Əliyevin fərmanı ilə yaradılan Azərbaycan Milli Konservatoriyasında bu istiqamətdə tədris, həmçinin tədqiqat işləri həyata keçirilir.

Vurğulanıb ki, Hindistandan İspaniyayadək geniş bir coğrafiyanı əhatə edən qədim muğam sənəti əsrlər boyu Azərbaycan sənətkarları tərəfindən yaşadılaraq inkişaf etdirilib. Eyni zamanda Altaylardan Türkiyəyədək böyük coğrafiyada yayılan, ümumtürk mədəni irsinin mühüm qolu olan aşıq sənəti Azərbaycan mədəniyyətinin zəngin səhifəsini təşkil edir. Ölkəmizdə hər iki sənətin inkişafına diqqət və qayğı göstərilir. Azərbaycan muğam sənəti və aşıq sənətimiz UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Rektor həyata keçirdikləri beynəlxalq layihələr, Norveç, Yaponiya, Latın Amerikası ölkələri ilə birgə musiqi layihələri, Milli Konservatoriyanın nəzdində fəaliyyət göstərən "Milli musiqi alətlərinin təkmilləşməsi" laboratoriyası haqqında da məlumat verib, iştirakçıların suallarını cavablandırıb. Argentina, Belarus, Qazaxıstan, Qırğızıstan və s. ölkələrdən təmsilçilər Milli Konservatoriyada təhsil almaq, distant təhsil imkanları ilə də maraqlanıblar.

# İtaliyada arxeoloji turizm üzrə beynəlxalq yarmarka keçirilib

Noyabrın 14-dən 18-dək İtaliyanın Paestum şəhərində XXI Arxeoloji turizm üzrə Aralıq dənizi yarmarkası (La Borsa Mediterranea del Turismo Archeologico) keçirilib. Əhatə dairəsinə, mövzu və konsepsiyasına görə dünyada bu qəbildən yeganə layihə hesab edilən tədbirə UNESCO, İCCROM (Mədəni dəyərlərin qorunması və bərpası üzrə Beynəlxalq tədqiqat mərkəzi), İCOMOS (Abidələrin və görməli yerlərin mühafizəsi üzrə Beynəlxalq şura) və Dünya Turizm Təşkilatı kimi qurumlar tərəfdaşlıq edir.

Hər il dünyanın müxtəlif ölkələrindən, eləcə də İtaliyanın əksər regionlarının və arxeoloji irsin mühafizəsi və təbliği üzrə ixtisaslaşmış qurumların qatıldığı yarmarkada Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi növbəti dəfə təmsil olunub. Tədbirdə nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Heyətdə Dövlət Xidmətinin rəis müavini Könül Cəfərova, nazirliyin Sənəd dövriyyəsinin təşkili sektorunun müdiri Natəvan Əsgərova, Regional idarələrin koordinasiyası və tabe qurumlarla iş sektorunun məsləhətçisi Qasım Şirinli, Quba Soyqırımı Memorial Kompleksinin direktoru Rəxşəndə Bayramova yer alıb.





Tədbirin rəsmi açılış mərasimində İtaliyanın mədəni irs, fəaliyyətlər və turizm naziri Alberto Bonisoli, Kapaççio Paestum kommunasının və Salerno vilayətinin rəhbərləri iştirak ediblər. Gün boyu davam edən sərgidə arxeologiya, mədəni irs nümunələrinin tədqiqi və təbliği, turizm və digər mövzularda konfrans və görüşlər keçirilib.

Yarmarka çərçivəsində ölkəmizə məxsus stenddə sərgiyə gələn qonaqlara ingilis və italyan dillərində müxtəlif reklam-çap, ölkəmizin mədəni və təbii irsinə, arxeoloji turizmə həsr olunmuş təbliğat materialları təqdim olunub.

Zakir Sultanov ölkəmizin stendini ziyarət edən UNESCO-nun sabiq baş direktoru İrina Bokova və Dünya İrsi üzrə Ərəb Regional Mərkəzinin direktoru Munir Buşenaki ilə görüşüb. Görüşdə bildirilib ki, ölkəmiz mədəni irs sahəsində beynəlxalq əməkdaşlığa, o cümlədən UNESCO ilə əlaqələrə xüsusi önəm verir. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər də müzakirə olunub.

Qeyd edək ki, XXI Arxeoloji turizm üzrə Aralıq dənizi yarmarkasına 20-dən çox ölkə qatılıb. Yarmarkaya 20 min nəfərdən çox ziyarətçi baş çəkib.

## "Əli və Nino"nun müəllifinin məzarı ziyarət edilib

İtaliyada XXI Arxeoloji turizm üzrə Aralıq dənizi yarmarkasında iştirak edən Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Pozitano şəhərində məşhur yazıçı Məhəmməd Əsəd bəyin (Qurban Səid) məzarını ziyarət edib.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov və nümayəndə heyətinin üzvləri Pozitano şəhəri qəbiristanlığında yerləşən məzarın üzərinə gül dəstəsi qoyublar.

Qeyd edək ki, Məhəmməd Əsəd bəy 1905-ci ildə anadan olub. 1920-ci ildə bolşeviklər Azərbaycanı işğal edənə qədər ailəsi ilə birgə Bakıda yaşayıb. Bir müddət Almaniya və Avstriyada məskunlaşıb, daha sonra İtaliyaya köçüb. 1942-ci ildə İtaliyanın Pozitano şəhərində vəfat edib. Məzarın olduğu yer isə 2017-ci ildə Mədəniyyət Nazirliyinin əməkdaşları tərəfindən müəyyən olunub.

"Qurban Səid" təxəllüsü ilə əsərlər yazan Məhəmməd Əsəd bəy daha çox "Əli və Nino" romanı ilə məşhurdur. Bu əsər 30-dan çox dilə tərcümə olunub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın layihə rəhbərliyi və BAFTA mükafatçısı Asif Kapadianın rejissorluğu ilə "Əli və Nino" adlı bədii film çəkilib.



# Azərbaycan Çində beynəlxalq mədəni sənaye sərgisində təmsil olunub





əvvəli səh. 1-də

Azərbaycanın ÇXR-dəki səfiri Əkrəm Zeynallı mərasimdə çıxış edərək xalqlarımız arasında münasibətlərdən söz açaraq tarixi İpək Yolunun bu münasibətlərin yaranması və inkişafında rolunu vurğulayıb. Çinin tarixi İpək Yolunun bərpası ilə bağlı irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünün təkcə iqtisadi və nəqliyyat sahələrini deyil, həm də humanitar və mədəni istiqamətdə də əməkdaşlıq üçün yeni imkanlar yaratdığını diqqətə çatdıran diplomat əlavə edib ki, Azərbaycan bu layihəni dəstəkləyən ilk ölkələrdən biridir. Ölkələrarası münasibətlərin inkişafında mədəni sahədə əməkdaşlığın rolunu vurğulayan Ə.Zeynallı əlavə edib ki, Çin vətəndaşları üçün tətbiq olunan sadələşdirilmiş viza rejimi, Pekin və Urumçi şəhərləri ilə Bakı arasında aviasiya əlaqəsi bu əlaqələrin inkişafına zəmin yaradır.

Mərasimdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı üzvlərinin ifasında milli rəqs nümunələrimiz yerli sakinlərin və xarici qonaqların böyük marağına səbəb olub.

Daha sonra ölkələrin stendlərinə baxış keçirilib. Azərbaycan stendində tariximiz, mədəniyyətimiz, milli mətbəximiz, "Böyük İpək Yolu" mədəni marşrutu ilə sıx bağlı olan, müasirliklə tarixi irsin ahəngdar şəkildə birləşdiyi respublikamız haqqında kitablar və videoçarxlar nümayiş etdirilib. Xalq dekorativ-tətbiqi sənət ustalarımızın əl işləri yarmarka iştirakçılarının xüsusilə diqqətini cəlb edib. Ustalar tərəfindən əl işləri nümunələrinin hazırlanması interaktiv formada nümayiş olunub, stendin ziyarətçiləri üçün ustad dərsləri təşkil edilib.

Daha sonra stendin önündə Dövlət Mahnı və Rəqs Ansamblı üzvlərinin ifasında konsert proqramı təqdim edilib. Azərbaycanın mədəni sənayesi ilə bağlı təqdimat və rəqs nümunələri rəğbətlə qarşılanıb.

Tədbirin ikinci günü Beynəlxalq mədəniyyət və iqtisadi turizm forumu keçirilib. Müxtəlif ölkələrin diplomatik nümayəndələrinin, mədəniyyət, iqtisadiyyat və turizm üzrə dövlət orqanlarının, özəl şirkət və elmi müəssisə təmsilçilərinin qatıldığı forumda Mədəniyyət Nazirliyi Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin müdiri Vüqar Şixəmmədov və Azərbaycanın ÇXR-dakı səfiri Əkrəm Zeynallı iştirak edib.

Tədbirdə çıxış edən V.Şixəmmədov mədəni sənaye mövzusunun aktuallığını vurğulayaraq belə bir beynəlxalq forumun keçirilməsinə görə təşkilatçılara minnətdarlığını bildirib. O, ölkəmizin tarixi, coğrafiyası, milli mədəni irsi barədə söz açaraq Azərbaycanın Böyük İpək Yolu üzərində əhəmiyyətini diqqətə çatdırıb. Qeyd olunub ki, ölkəmizin 11 mədəni irs nümunəsi UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilib. Azərbaycanın beynəlxalq mədəni marşrutlara daxil edilməsi üçün böyük perspektivləri var.

Forumun panel müzakirələrində səfir Əkrəm Zeynallı iki ölkənin turizm sahəsində əməkdaşlığı barədə danışıb, sualları cavablandırıb.

## "Bu tədbir vasitəsilə Azərbaycanla əlaqələr qurmağa başlayırıq"

İndiyədək Azərbaycanda olmamışam. Amma bilirəm ki, Azərbaycan qədim tarixə və özünəməxsus mədəniyyətə malik olan ölkədir. Odur ki, ölkənizə səfər etmək arzusundayam. Azərbaycana gedərək Qafqaz dağlarının gözəlliklərini seyr etmək istərdim.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Çinin kurort zonası olan Xaynan adasındakı Sanya şəhərinin meri A Dun deyib. O, Sanya şəhərində keçirilən 3-cü beynəlxalq mədəni sənaye sərgisi vasitəsilə Azərbaycanla əlaqələr qurmağa başladığını bildirib. "Dostluq və əməkdaşlığın inkişafı üçün şəhərimizin nümayəndə heyətinin Azərbaycana səfərini təşkil edərək, ölkənizdə müvafiq görüşlərin keçirilməsini düşünürük", - deyə mer əlavə edib.

# İki ölkənin Əməkdar rəssamı

Rusiya Xarici İşlər Nazirliyi (XİN) yanında Diplomatik Akademiyada Azərbaycanın və Rusiyanın Əməkdar rəssamı Əsgər Məmmədovun "Nar dalğaları" adlı sərgisi açılıb.

Açılış mərasimində ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu Azərbaycan Respublikasının "Əməkdar rəssamı" fəxri adının döş nişanını və vəsiqəsini rəssama təqdim edib. Bildirib ki, Azərbaycan Prezidentinin 27 may 2018-ci il tarixli sərəncamı ilə Əsgər Məmmədov fəxri ada layiq görülüb.

Dövlətimizin başçısının tapşırığı ilə ali mükafatı ona təqdim etdiyini bildirən P.Bülbüloğlu deyib: "Azərbaycan Prezidenti İlham Əliyev məhz bu binada təhsil alıb. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu o zaman indi Diplomatik Akademiyanın yerləşdiyi bu binada fəaliyyət göstərirdi. Prezident İlham Əliyevin sərəncamı ilə təltif olunduğunuz fəxri adın döş nişanını və diplomunu məhz bu binada təqdim etmək mənim üçün olduqca xoşdur".

Rusiya XİN yanında Diplomatik Akademiyanın rektoru Yevgeni Bajanov deyib: "Biz hər ay Diplomatik Akademiyada müxtəlif ölkələrin rəssamlarının əsərlərindən ibarət sərgi təşkil edirik. Əsgər Məmmədovun əsərləri orijinallığı və səmimiliyi ilə fərqlənir. Mənim mərhum həyat yoldaşım Natalya Bajanova



Bakıda doğulub, boya-başa çatıb. Odur ki, Əsgər Məmmədovun əsərlərindəki Bakı mənzərələri mənim üçün daha doğmadır".

Mərasimdə çıxış edən akademik Fazil Qurbanov, Rusiyanın Əməkdar rəssamı Viktor Buskin, publisist Sultan Mərzili və başqaları bildiriblər ki, Ə.Məmmədovun rəsmlərində doğma Qarabağın nisgili duyulur. Onun natürmortlarında Azərbaycanın bar-bərəkət brendləri – heyva və nar təsvirləri göz oxşayır. Rəssamın bənzərsizliyi ondadır ki, o öz yaradıcılığı ilə milli dəyərləri beynəlmiləl dəyərlər səviyyəsinə çatdırır.

Əsgər Məmmədov onun yaradıcılığına verilən yüksək qiymətə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.

Sərgidə Əsgər Məmmədovun Qarabağ, Bakı mənzərələri, Azərbaycanın füsunkar təbiəti mövzusunda rəsmləri nümayiş olunur.

Qeyd edək ki, Əsgər Məmmədov 1945-ci ildə Ağdam rayonunun Mərzili kəndində dünyaya göz açıb. Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini bitirib, Moskva Ümumittifaq Kinematoqrafiya İnstitutunda cizgi filmləri rejissorluğu üzrə təhsil alıb. "Azərbaycanfilm" kinostudiyasında çalışıb. Gənc yaşlarından rəssamlıq fəaliyyəti ilə məşğul olan rəssam Mərzili kəndində şəxsi qalereyasını yaradıb, lakin 1993-cü ildə kəndin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı 200-ə qədər rəsm əsəri yandırılaraq məhv edilib. Sonradan Moskvaya köçən və orada yaradıcılıq fəaliyyəti göstərən rəssam Rusiyanın Əməkdar rəssamı adına layiq görülüb. Dəfələrlə müxtəlif ölkələrdə sərgiləri keçirilib.

# Mətbuat Şurası ilə Rusiya Jurnalistlər İttifaqı əməkdaşlıq edəcək

Azərbaycan Mətbuat Şurası ilə Rusiya Jurnalistlər İttifaqı arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənədi Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov və Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov imzalayıblar.

Mərasimdə çıxış edən Ə.Amaşov rəhbərlik etdiyi qurumun fəaliyyəti, beynəlxalq əlaqələri barədə danışıb. Bildirib ki, Rusiyadan Azərbaycana, Azərbaycandan isə Rusiyaya jurnalist səfərləri gerçəkləşdirilməkdədir. İki qurum arasında əməkdaşlıq memorandumu bu prosesin daha təkmil formada reallaşdırılmasını təmin edəcək, eyni zamanda faydalı nəticələr verəcək.




V.Solovyov da imzalanan sənədin iki ölkənin media qurumları, eləcə də jurnalistləri arasındakı təmasın daha sistemli şəkildə qurulmasına zəmin yaradacağına əminliyini vurğulayıb. O, həmçinin rəhbərlik etdiyi qurumun fəaliyyətindən danışıb. Bildirib ki, Rusiya Jurnalistlər İttifaqı Avropanın ən böyük jurnalist təşkilatlarındandır, 100 minə yaxın üzvü var. İttifaqda 82 regional təşkilat, 40 yaradıcılıq birliyi, assosiasiyası təmsil olunur.

Əməkdaşlıq memorandumunda jurnalistlərin və KİV nümayəndə heyətlərinin qarşılıqlı səfərlərin təşkili, təcrübə mübadiləsi, birgə layihə və proqramların həyata keçirilməsinə dəstək göstərilməsi, jurnalistikaya dair təlim vasitələrinin hazırlanmasında və nəşrində birgə iştirak, hər iki ölkənin, eləcə də digər maraqlı ölkələrdən olan tərəflərin iştirakı ilə konfranslar, treninqlər, müsabiqə və seminarlar təşkil etmək, qarşılıqlı maraq doğuran məsələlərdə informasiya mübadiləsi aparmaq nəzərdə tutulub.

## Gənc bəstəkar və ifaçıların konserti

Noyabrın 16-da "Mədəni Əlaqələrin İnkişafına Dəstək" İctimai Birliyi və Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsinin birgə təşkilatçılığı ilə Kamera və orqan musiqisi zalında "Şanlı tarix" adlı konsert proqramı təqdim olunub.

Milli Dirçəliş Gününə həsr olunmuş konsertdən öncə ictimai birliyin sədri İlahə Qismət və "Gənclərə dəstək" layihəsinin koordinatoru Ayla Zəkəriyyə çıxış ediblər.

Konsertdə gənc bəstəkarlar İlahə Qismət, Aysel Hacıyeva, Röya Hüseynova, Vəfa Bağırzadə, Sevinc Əliyeva, Nicat Əhmədzadə, Sevinc Balabəyova, Tofiq Rzayev, Üzeyir Məmmədovun əsərləri səslənib. Mətanət Nurullayeva (piano), Kamilla İmanova (vokal), Nərgiz Kəngərli (piano), Natəvan Həsənova (qanun), Günay Məmmədova (vokal) və İsmət Sabirli (vokal) ifa etdiyi əsərlər maraqla qarşılanıb.

Konsertin sonunda iştirakçılar hər iki qurum tərəfindən diplomlarla mükafatlandırılıblar.

# Milli xalça sənətimizi dünyaya tanıdan sənətkar

## Lətif Kərimovun xatirəsi əlamətdar gündə yad olunub

Xalça Muzeyində Azərbaycan xalça sənətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına salınmasının (16 noyabr 2010) ildönümünə və Xalq rəssamı, professor Lətif Kərimovun doğum gününə (17 noyabr 1906) həsr olunmuş tədbir keçirilib.





Tədbirdən öncə Azərbaycan Xalça Muzeyinin əməkdaşları Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Xalq rəssamı Lətif Kərimovun qəbrini ziyarət ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Xalça Muzeyinin Şuşa filialının müdiri Əlisəfa Nuriyev bəşəri sənətlər içərisində özünəməxsusluğu ilə seçilən və xalqımızı dünyada tanıdan xalça sənəti haqqında danışıb. Bildirib ki, Azərbaycan xalçası və xalça sənəti 2010-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Keniyanın Nayrobi şəhərində keçirilən V sessiyasında "Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilib. Mədəni irsimiz üçün əlamətdar olan bu hadisənin gerçəkləşməsində UNESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna rolu olub. Xalqımızın yaratdığı sənət incilərinin UNESCO-nun xətti ilə təbliği milli irsimizə beynəlxalq miqyasda dəyər qazandırır.

Muzeyin Şuşa filialının müdiri bildirib ki, görkəmli xalçaçı rəssam Lətif Kərimov da zəngin fəaliyyəti, yaratdığı xalça əsərləri, dəyərli elmi araşdırmaları ilə həm milli xalçaçılıq sənətinə, həm də ümumilikdə bəşəriyyətin sənət xəzinəsinə töhfələr verib. O, Azərbaycan dekorativ-tətbiqi sənətində yeni istiqamətlər yaradıb, xalça sənətinin incəliklərini öyrənərək və təməlini qoyduğu elmi əsaslarla təsdiqləyərək, özündən sonrakı nəsillərə miras saxlayıb. O, uzun illər "Azərxalçaittifaq" müəssisəsində Bədii yaradıcılıq qrupuna rəhbərlik edib, müəssisədə milli naxışlara mənsub xalçalarla yanaşı, həm də çoxsaylı yeni süjetli və portret xalçaların yaradılmasının təşəbbüskarı və əsas müəllifi idi. 1967-ci ildə onun təşəbbüsü ilə dünyada bənzəri olmayan Azərbaycan Xalça Muzeyi yaradılıb.

Tədbirdə Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Kübra Əliyeva, Lətif Kərimovun tələbəsi olmuş Xalq rəssamı Arif Hüseynov, sənətkarın ailə üzvü A.Səfərov çıxış edərək xatirələrini söyləyiblər.

Sonra Lətif Kərimov haqqında lentə alınmış telefilm nümayiş etdirilib, musiqi proqramı təqdim olunub.

Tədbirin sonunda muzeyin ekspozisiyasında Lətif Kərimova həsr olunmuş guşə ziyarət edilib.

## Aşıq İmranın 90 illiyi qeyd edilib



Mədəniyyət Nazirliyi və Azərbaycan Aşıqlar Birliyinin (AAB) birgə təşkilatçılığı ilə R.Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında ustad aşıq, Əməkdar mədəniyyət işçisi İmran Həsənovun anadan olmasının 90 illiyi qeyd edilib.

Tədbirdə AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı İmran Həsənovun ömür və yaradıcılıq yolundan danışıb, XX əsrin ikinci yarısında Azərbaycan aşıq sənətinin inkişafında onun xidmətlərindən söz açıb.

Qeyd olunub ki, İmran Həsənov 1928-ci ildə Göyçə mahalının Ağbulaq kəndində anadan olub. Sonradan Tovuza köçüb. Aşıqlığı əvvəlcə əmisi aşıq Dünyamalıdan, sonra isə Məhərrəm Hacıyevdən öyrənib. Zil səsi ilə seçilən İ.Həsənov tezliklə istedadlı aşıq kimi tanınıb. 1956-cı ildə Bakı, 1957-ci ildə Moskva festivallarının laureatı olub. 1967-ci ildə respublikanın "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb. Azərbaycan aşıqlarının III və IV qurultaylarının iştirakçılarından olub. Aşıq İmran nağıl və dastanların, aşıq şeirlərinin və havalarının mahir bilicisi və ifaçısı olmaqla yanaşı, həm də yüzlərlə qoşma, gəraylı və vücudnamə müəllifidir.

Tədbirdə tanınmış və gənc aşıqlar, Təbrizdən gəlmiş sənətkarlar, Əməkdar mədəniyyət işçisi Gülarə Azaflının rəhbərlik etdiyi "Çeşmə" folklor qrupu və Anar Abdullayevin başçılığı ilə "Koroğlu" aşıqlar qrupunun üzvləri öz ifaları ilə ölməz sənətkarın ruhuna ehtiramlarını ifadə ediblər.

Sonda yubilyarın oğlu Firdovsi Həsənov atasının xatirəsinə göstərilən ehtirama görə tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

## Mehdi Hüseynzadənin yubileyinə həsr olunmuş kitab




Azərbaycan Dövlət Tərcümə Mərkəzinin yeni nəşri – xalqımızın igid oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin 100 illiyinə hazırlanmış "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" kitabı işıq üzü görüb.

Mərkəzdən bildirilib ki, II Dünya müharibəsi dövründə keçmiş Yuqoslaviya və İtaliya partizan dəstələrinin tərkibində nasist Almaniyasına qarşı döyüşmüş qəhrəmanın rəşadətli ömür yolundan bəhs edən əsərin müəllifi – tanınmış Sloveniya yazıçısı Peter Amaliettidir.

Kitab igid partizanın tarixi qəhrəmanlıqlarının şahidi olmuş sloveniyalıların dili ilə söylənən xatirələr, sənədli mətn və materiallar əsasında tərtib edilib.

Əsəri Azərbaycan dilinə Fərhad Abdullayev tərcümə edib.

## "Möcüzəli səslər xəzinəsi"

Dövlət Səs Yazıları Arxivinin direktoru, Əməkdar mədəniyyət işçisi Həsənxan Mədətovun "Möcüzəli səslər xəzinəsi" adlı kitabı işıq üzü görüb.

Milli Arxiv İdarəsinin İnformasiya təminatı və elektron xidmətlər mərkəzinin rəhbəri Natiq Eminovun bildirdiyinə görə, yeni nəşrdə 1968-ci ildən bəri bu sahədə aparılan işlərdən, habelə səs yazılarının toplanılması, gələcək nəsillərə çatdırılması, mövcud problemlərdən və onların həlli yollarından söz açılır.

Qeyd edək ki, bu il 50 yaşı tamam olan Dövlət Səs Yazıları Arxivi öz sahəsi üzrə ölkədə yeganə elmi-metodiki mərkəzdir. Qurumun əsas məqsədi respublikanın ictimai-siyasi, tarix, elm və mədəniyyətini özündə əks etdirən bədii, sənədli audio-video sənədləri toplayıb dövlət mühafizəsini təmin etməkdir.

## Tolerantlıq günü münasibətilə kitab sərgisi

Noyabrın 16-da Azərbaycan Milli Kitabxanasında "16 noyabr – Beynəlxalq Tolerantlıq Günüdür" adlı kitab sərgisi açılıb.

Sərgidə multikultural və tolerant dəyərləri özündə əks etdirən və Azərbaycanda məskunlaşmış azsaylı xalqların mədəniyyətindən, həyat tərzindən bəhs edən 250-dən çox Azərbaycan, rus və bir çox azsaylı xalqların dillərində nəşr olunmuş kitablar, dövri mətbuat materialları nümayiş olunub.



Adətən, haqq dünyasında olan kimisə xatırlayanda sözə belə başlayırlar ki, yaşasaydı…

Lakin xoş əməlləri, şirin xatirəsi yaşayan şəxs üçün necə deyəsən ki, yaşasaydı? Bu söz onlara, xüsusilə də görünüşü, səsi lent yazılarına həkk olunmuş sənət adamlarına heç yaraşmır axı… Kino aktyorlarına da xüsusən!.. Bilirsən ki, özü deyil, rola girib, başqalaşıb obraz yaradıb. Bilirsən ki, gördüyün kinodur, film başa çatanda istehsal olunduğu tarix yazılacaq. Amma, yenə də amma. Yenə də dilin dönür, deyirsən ki, filankəs yaşasaydı, filan yaşı tamam olacaqdı.

Həsən Turabov da bu il 80 yaşına çatdı. Əslində, 80 yaşı təqvimlə 24 martda tamam olmuşdu, bu günlərdə isə (15 noyabr) təntənəli yubiley mərasimi gerçəkləşdi.

# Yaşasaydı deməyin...

Biz görkəmli aktyorun bu yaşına onsuz gəlib yetişdik. Onu təkcə həyatda tanıyanların yox, səhnədən, ekrandan tanıyıb sevənlərin də öz Həsən Turabovu var idi.

Birimiz üçün o, əbədi olaraq Kamran ("Unuda bilmirəm"), o birimiz üçün Gəray bəy ("Yeddi oğul istərəm"), başqa birimiz üçün Hamlet ("Hamlet"), kimlər üçün isə Nicat ("Mahnı dağlarda qaldı"), Qiyas ("Şəhərin yay günləri"), Kəbirlinski ("Dantenin yubileyi"), Həsən müəllim ("Bəyin oğurlanması") idi… Bu siyahını görkəmli aktyorun istər teatrda, istərsə də kinoda yaratdığı obrazların sayı qədər uzatmaq olar. Amma siyahını uzatmağa nə ehtiyac? Onsuz da sizə öz tanıdığım Həsən Turabovu tanıtmaq istəyirəm.

Yaşım, tamaşaçı stajım imkan vermir ki, onun Hamletindən, İsgəndərindən bəhs edim, yaxud Gəray bəyə kütləvi tamaşaçı heyranlığının, nifrətinin təəssüratını bölüşüm. Amma nə xoş mənə ki, Həsən Turabovu şəxsən tanımaq qismət oldu, onu həyatının nizamı pozulmamış günlərində də, oğul dərdindən içini yediyi günlərində də yaxından gördüm. Hə, bir də xatirələrdən - onu uzun illər yaxından tanımaq xoşbəxtliyini yaşamış sənət adamlarının xatirələrindən sızan cizgilərlə dolğunlaşan Həsən müəllim obrazı var yaddaşımda.

### İraddan nəticə çıxaran cavan oğlan…

Həsən Turabov aktyorluqdan daha əvvəl səsi ilə tanınıb. Təzə yaranan milli televiziyada, respublika radiosunda çalışan sənət sərrafları çox sakit, içindən boy göstərməyə cəhd etməyən bir cavan oğlanı hələ tələbə ikən büllur saflığında dolğun səsinə görə bədii qiraət proqramlarına dəvət edirlər. Belə proqramların birində o, Mikayıl Müşfiqin "Yenə o bağ olaydı" şeirini oxuyur. Həmin təsirli çıxışın ertəsi günü görkəmli aktyor Ələsgər Ələkbərov teatrda onu görəndə deyir:

- O şeir deyən oğlan sən idin?

- Mən idim, - deyə Həsən Turabov müqtədir aktyordan yəqin ki tərif eşitmək ümidi ilə dillənir.

- Çox pis! Elə bildim ki, Əli Zeynalovdur şeiri deyən.

Ələsgər Ələkbərov bu fikri nə gənc aktyoru pərt etmək üçün demişdi, nə də Əli Zeynalovun bədii qiraət qabiliyyətini aşağılamaq üçün. Sözünü kəsə demişdi ki, gənc oğlan təsir altından tez çıxsın, öz yolunu tapsın. Elə bir istedadın sahibi şəksiz ki, gec-tez öz yolunu tapacaqdı, sadəcə, Ələsgər Ələkbərov kimi nəhəngin təpkisi bunu mümkün qədər tez tapmağın xeyrini anlatdı...

Görkəmli rejissor, Xalq artisti Vaqif Əsədov əziz dostu barədə xatirəni mənimlə bölüşəndə düşünürəm ki, görəsən, bu günün tələbə aktyorlarına iradı bu cür bildirsən, necə reaksiya verərlər?

### İstedadının memarına rast gələn aktyor

Belə baxanda boy-buxun, yaraşıq baxımından Həsən Turabov o qədər də qamətli deyildi. Onun bütün görkəminə canlılıq gətirən iri badamı formalı, qonur rəngli gözlərinin ifadəsi də teatr üçün öndə olan cəhət deyildi. Teatr qabariti, ifadəli hərəkətləri, uca səsi sevir ki, 300-500 nəfərlik salonun axırıncı cərgəsində oturan da aktyorun pıçıltısını eşitsin, obrazda olduğunun fərqinə varsın. Bəli, Turabovun yumşaq olmasa da, cingiltisi qulaq cırmaqlamayan yüksək tembrli, qalın səsi var idi. Bəxti onda gətirdi ki, Akademik Milli Dram Teatrında çalışan bir neçə digər aktyor kimi o da istedadının memarına rast gəldi: böyük rejissor Tofiq Kazımov! Gənc aktyorun tamaşaçını cəlb edə biləcək xarizmasını, daxilindəki potensialı o gördü, inandı və… ötən əsrin 60-70-ci illərinin təkrarsız sənət ulduzu parladı. Həsən Turabovun səhnəyə gəlişi ilə teatrda daha gənc aktyorların baş rollarda çıxış etməsi mərhələsi də başladı.

### Kəbirlinski ilə Kabiriyanın oxşarlığı

Yaraşıq demişkən, Həsən Turabovun gözlərində qəribə dərinlik var idi. Bu dərinlik tamaşaçının diqqətini maqnit kimi özünə çəkə bilirdi. Milyonların bunun fərqində olmasından ötrü isə ekran gərək idi. O, böyük ekranda da, televiziya tamaşalarında da çox obraz yaratdı. Həm də onun kino fəaliyyətindən söz düşəndə bir-birindən bipolyar fərqlilikdə iki obrazın adını çəkirlər: Gəray bəy, bir də Həsən müəllim. Ta demirlər ki, bu iki rolun arasındakı dövrdə Həsən Turabov bir şedevr də yaradıb: "Dantenin yubileyi"ndəki qocaman teatr fədaisi Feyzulla Kəbirlinski obrazı!.. Bir anlığa Elmlər Akademiyasındakı yubiley mərasiminin çoxdan olduğunu biləndən sonra xanımının yanınca pərt addımlayan qoca kişinin baxışlarını gözünüzün qarşısına gətirin... Aktyorun baxışlarındakı məzlumluq ekrandan belə adama pərtliyin göynərtisini ötürür... Eynilə Fellininin "Kabiriyanın gecələri"ndəki son epizodda adi qadın həyatı sürmək çabaları boşa çıxmış baş qəhrəmanın üzüntüsünü baxışları ilə çatdıran Cülyetta Mazini kimi... İndi deyə bilərsiniz ki, Kabiriyanın halı hara, Kəbirlinskinin durumu hara... Çözüb dərinə gedəndə görürsən ki, elə bütün aldanışların, bütün pərtliklərin kökü eynidir.

### Həsənağa və Həsən ağa

Həsən (Həsənağa) Turabov "Azdrama"ya gələndə bu kollektivdə bir Həsənağa da var idi. Həsənağa Salayev. Artıq çox məşhur, sevilən bir aktyor. Adını çəkəndə çaşqınlıq yaranmasın deyə, cavan Həsənağanın adındakı ağanı ixtisara saldılar. Afişalarda da adını Həsən yazdılar, televiziya, radio verilişlərində də onu Həsən Turabov kimi təqdim etdilər. İllər ötdü, Turabov öz şəxsiyyəti ilə elə bir nüfuz qazandı ki, adını nəinki çalışdığı, sonradan ilk və son seçilmiş direktor kimi 14 il rəhbərlik edəcəyi teatrda, sədri olduğu Teatr Xadimləri İttifaqında, ona sadiq dost-tanış içində Həsən ağa kimi çağırmağa başladılar. Əslində, ağayanalıq onun davranışında, baxışında, səhnədən kənarda heç zaman uca səslə danışmamaq şakərində, bacardığını işçilərindən, dostlarından əsirgəməməkdə, bəzən hətta hansısa aktyorun içkili olduğu üçün cərimə meydançasında saxlanılan avtomobilindən ötrü lazım olan ünvana öz ayağı ilə getməkdən ərinməmək böyüklüyündə idi. Özünüz deyil, qapınızı döyən kişinin səhnəmizin İsgəndəri, kinomuzun Gəray bəyi olduğunu görsəniz, xahişini yerə salarsınız?..

### Bənzərəm bir qocaman dağa…

12 mart 1997-ci il. Milli Teatr Gününün (10 mart) təbrikləri hələ köhnəlməyib. Hər tərəfdə Novruz ovqatı duyulur. Ölkənin bütün teatrlarında bayram tədbirlərinə hazırlıq gedir. Novruzdan savayı, martın 27-si Beynəlxalq Teatr Günüdür, 24-ü də Həsən Turabovun doğum günü. 59 yaşı tamam olacaq. Yəqin budəfəki doğum günündə də xeyli təbrik alacaq, geri qanrılıb yaşadığı illərə nəzər salacaq. Görəcək ki, hələ məktəbli ikən aşiq olduğu, ilk və son məhəbbəti Solmaz xanım da yanındadır, canından artıq sevdiyi balaları Daşqın, Yalçın, Sevinc də, nəvələri də.

Doğum gününə elə 12 gün qalmış, martın 12-də bu xoş düşüncələrin sırası qəfil qırılan inci boyunbağı kimi qırıldı. Siyəzəndə polis zabiti işləyən Daşqın iş başında cinayətkar gülləsinə tuş gəldi. Ailənin böyük oğluna, atasının cavanlığını təkcə zahiri oxşarlığı ilə yox, həm də təmkini, xəfif təbəssümü ilə xatırladan Daşqına dəyən güllə bütün ailəni yaraladı…

Xain güllənin törətdiyi olay Həsən müəllimin təkcə ruhunu, qəlbini deyil, cismini də yaraladı.

10 mart 1998-ci il. Azərbaycan Teatr Xadimləri İttifaqı yerləşən binadakı restoranda Milli Teatr Günü bayram edilir. Bakının bütün teatrlarından nümayəndələr yığışıb. Teatr yazarlarının arasında mən də varam. Deyirik, gülürük, təbriklər də bir-birinin ardınca sıralanıb. Arada Daşqınsız ötən bir ildə on il qocalmış, sınıxmış, iri gözlərinin parıltısı öləzimiş Həsən müəllimi süzürəm.

Görəsən, ciyərparasının il mərasiminə iki gün qalmış bayram təbrikini səmimi təbəssümlə qəbul edəcək qədər genişqəlbli, dözümlü olmaq hər kəsin hünəridirmi? Çətin…

1998-ci ildə Xalq artisti Həsən Turabovun 60 yaşı tamam olurdu… Onun yubileyi aktyorun sənətinə, şöhrətinə yaraşan tərzdə qeyd olunmadı.

Övlad itkisinin acısını göynəyən xatirəyə çevirməyə bəs edəcək qədər zaman keçsə də, növbəti yuvarlaq yubiley dönəminə çatmağa əcəl möhlət vermədi. 65 yaşına 1 ay qalmış, fevralın 23-də dünyasını dəyişdi.

* * *

Bu ilsə onun 80 yaşı tamam olur. Yubileyi ölkə miqyasında qeyd edildi. Amma sizdən bir xahişim var: onun haqqında televiziya verilişinə, çəkildiyi filmlərə, oynadığı tamaşaların lent yazısına baxanda, lap elə bu yazını oxuyanda "yaşasaydı" deməyin. Çünki Turabov kimi sənət nəhəngləri cismən aramızdan gedirlər. Köçdükləri də təkcə haqq dünyası deyil, həm də bizim qəlbimiz, qoruduğumuz xatirələrdir.

**Gülcahan MİRMƏMMƏD**

# Sənətdə keçən əlli ilin səhnə hesabatı

Heydər Əliyev Sarayında Xalq artisti Yalçın Rzazadənin yaradıcılığının 50 illiyinə həsr olunmuş gecə keçirilib.




Xalq artisti Heydər Əliyev Sarayının səhnəsində 50 illik sənət fəaliyyəti dövründə ifa etdiyi ən sevilən mahnılarını səsləndirib.

Konsert proqramında həmçinin xalq artistləri Mübariz Tağıyev, Samir Cəfərov, Nazpəri Dostəliyeva, Gülyaz və Gülyanaq Məmmədovalar, əməkdar incəsənət Xadimi Cavan Zeynallı, əməkdar artistlər Nüşabə Ələsgərli, Rəşad İlyasov, Ədalət Şükürov, tanınmış müğənnilər Nadir Qafarzadə, İlqar Xəyal, İntiqam Kərimov, Elçin Şirin, Cavid Hüseynov, Vüsalə Əsgərova və tələbələri Aytac Şahmarqızı, Nigar Şakirqızı, Can Akar çıxış edərək Yalçın Rzazadəyə öz musiqili təbriklərini çatdırıblar. İfaçıları Azərbaycan Televiziya və Radiosunun Tofiq Əhmədov adına Estrada simfonik orkestri və Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblı müşayiət edib.

Proqramda Yalçın Rzazadənin repertuarından "Bakı, sabahın xeyir", "Azərbaycan", "Anam qocalır", "Bu gecə", "Durnalar", "Gün keçdi", "Həsrətindəyəm", "Səni axtarıram" və digər məşhur mahnılar səsləndirilib.

Sonda tamaşaçıların sürəkli alqışlarından mütəəssir olan sənətkar bütün tamaşaçılara və dünya azərbaycanlılarına öz təşəkkürünü bildirib.

# Qəmli bir eşq hekayəsi...

Sevilən məşhur əsərlər yaxşı tanıdığın dost kimidir. Onunla hər görüşdən həzz alırsan və xoş təəssüratla da ayrılırsan.

Yəqin ki, noyabrın 18-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına A.Adanın "Jizel" baletinin tamaşasına gələnlər də özlərini dost görüşündəki kimi hiss edirdilər.



Jizel adlı sadə, ürəyi xəstə kəndli qızının sonu aldanışlı və bu dünyadan köç ilə bitən qəmli eşq hekayətini seyr etmək, Adolf Adanın özünün janrını "fantastik balet" kimi müəyyən etdiyi baletin insan qəlbinə nüfuz edən musiqisini dinləmək, bir də öz teatrımızın solistləri ilə birlikdə Rusiya Böyük Teatrının solistləri Anna Nikulina (Jizel) və Ruslan Skvortsovu (qraf Albert) Bakı səhnəsində görmək üçün teatra gələnlər seçimlərində yanılmadılar. Əslində, bu baletin Parisdəki ilk tamaşasından ötən 177 il ərzində "Jizel"in bütün səhnələrdəki hər uğurlu quruluşu və truppanın mükəmməl ifası klassik musiqi xiridarlarında təxminən eyni hislər doğurub...

..."Bu əsərdə nələr yoxdur. Təxəyyül, poeziya, musiqi, yeni hərəkətlərin kompozisiyası, gözəl rəqqasələr, həyat dolusu harmoniya, zəriflik, enerji! Hər şey yerində və dolğun! Balet belə əsərə deyirlər".

Bu sözləri dövrünün tanınmış jurnalisti və tənqidçisi Jül Janen "Jizel"in ilk quruluşu, adı titul partiyanın ilk ifaçılarından biri kimi sənət tarixinə düşmüş Karlotta Qrizinin çıxış etdiyi tamaşa barədə yazıbmış. Onun fikrini olduğu kimi Bakı səhnəsində təqdim edilən "Jizel"ə şamil etmək düzgün olmasa da, hər halda bizim teatrın repertuarındakı tamaşa da yüksək tariflərə layiqdir.

Jizel bir müntəxəbat tamaşası olsa da, yəni demək olar ki, quruluş baxımından bir zaman Marius Petipanın qurduğu təməldən yayınmasa da, hər halda iki əsas partiyanın ifaçısının səhnə təcrübəsi tamaşanın xeyrinə işlədi. Jizel-Albert duetində sənətsevərlərə tanış olan Anna Nikulina ilə Ruslan Skvortsovun gerçək görüşlərin təsvir edildiyi birinci pərdədə də, Jizel vəfat edəndən sonra vilisə (Qərbi Avropa mifologiyasında nişanlı qız dünyasını dəyişdikdən sonra gerçək dünyaya qayıdan, çox zaman xeyirxah niyyətli, lakin ölümünə bais olanlardan intiqam alan kabus) çevrilib onu aldatmış qrafı ölümdən qurtardığı ikinci pərdədə də ifaları alqışa layiq idi.



Tamaşadakı ikinci əsas kişi partiyasının – meşəbəyi Hans rolunun ifaçısı Timur Oduşovun da tam formada olması, öz rolunu ürəkdən ifa etməsi, qarşılaşdıqları səhnələrdə Ruslan Skvortsova layiqli tərəfdaş kimi çıxış etməsi, Jizelin ölümündə özünü günahkar bildiyi səhnədəki çıxışı da diqqətdən yayınmadı. Vilislərin başçısı, Jizeldən fərqli olaraq qəddar qəlbli Mirtanın (Elmira Süleymanova) hökmü ilə nakam ruhlar öz əməlindən peşman Hansın canını aldıqları səhnədə Timur Oduşov dramatik artistizm qabiliyyətini səxavətlə sərf etdi.

Teatra yenicə baş dirijor təyin edilmiş Əməkdar artist Əyyub Quliyevin idarə etdiyi orkestrin nizamlı çalğısı balet artistlərinin səhnə performansından yaranan təəssüratı uğurla tamamladı.

**Gülcahan MİRMƏMMƏD**

## "Payız sonatası" Tbilisi səhnəsində

Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı İnqmar Berqmanın pyesi əsasında hazırlanmış "Payız sonatası" tamaşası ilə noyabrın 22-də Tbilisidə çıxış edəcək.

Tamaşa A.S.Qriboyedov adına Tbilisi Dövlət Akademik Rus Dram Teatrının səhnəsində nümayiş olunacaq.

Səhnə əsərinin quruluşçu rejissoru və musiqi tərtibatçısı İlqar Safat, dekorasiyalar üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorov, geyim üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Olqa Abbasovadır.

Rolları xalq artistləri Lyudmila Duxovnaya, Məbud Məhərrəmov, aktyorlar Rumiyə Ağayeva və Tamilla Abutalıbova ifa edəcəklər.

## Əməkdar artist Bişkekdə mükafata layiq görülüb

Xəbər verdiyimiz kimi, Akademik Milli Dram Teatrı Bişkekdə Çingiz Aytmatovun 90 illik yubileyinə həsr olunan "Aytmatov və teatr" adlı beynəlxalq festivalda yazıçının əsəri əsasında hazırlanmış "Manqurt" tamaşasını təqdim edib.

Əməkdar artist Mehriban Xanlarova tamaşadakı Nayman ana roluna görə "İkinci planda ən yaxşı qadın ifaçısı" mükafatına layiq görülüb.

## "Cəhənnəm sakinləri" Şamaxıya gedib

Akademik Milli Dram Teatrının kollektivi "Cəhənnəm sakinləri" tamaşası ilə Şamaxıya qastrol səfərinə gedib. Teatrın mətbuat xidmətindən verilən məlumata görə, tamaşa noyabrın 20-də Şamaxı Mədəniyyət Mərkəzində nümayiş etdirilib.

Xalq yazıçısı Elçinin eyniadlı pyesi əsasında hazırlanan səhnə əsərinin quruluşçu rejissoru və rəssamı Xalq artisti Azərpaşa Nemətov, rejissoru Anar Sadıqov, rejissor assistenti Dilbər İsmayılova, musiqi tərtibatçısı Kamil İsmayılovdur.

Tamaşada Azər Dadaşovun musiqisindən istifadə olunub.

Rolları xalq artistləri Məleykə Əsədova, Nurəddin Mehdixanlı, əməkdar artistlər Elşən Rüstəmov, Mirzə Ağabəyli, aktyorlar Vüsal Mustafayev, Elçin Əfəndi, Ləman İmanova, Rüstəm Rüstəmov, Rada Nəsibova, Ramin Şıxəliyev, Xədicə Novruzlu oynayırlar.

Tamaşa 1937-ci ilin repressiya hadisələrindən bəhs edir. İnsanlara qarşı həyata keçirilən kütləvi təqib, mənəvi təzyiq ər və arvadı üz-üzə qoyur, onlar böyük qorxunun əsarəti altında satqına çevrilirlər. Günahlarını bir-birindən gizlətməyə çalışsalar da, günlərin birində evlərində peyda olan çağırılmamış qonaq (ər-arvada görə Şeytan) onların əsl mahiyyətini üzə çıxarır...

Qeyd edək ki, "Cəhənnəm sakinləri" Milli Dram Teatrının repertuarında yer alan ən uğurlu tamaşalardan biridir.

## Tanınmış teatr rejissorunun 85 illiyi qeyd edilib

Daşkənddə Əlişir Nəvai adına Özbəkistan Dövlət Opera və Balet Teatrının baş rejissoru, Azərbaycanın və Özbəkistanın Xalq artisti, Dövlət mükafatı laureatı Firudin Səfərovun 85 illiyi qeyd edilib.



Gecədə çıxış edənlər Firudin Səfərovun həyat və yaradıcılığı haqqında danışaraq vurğulayıblar ki, rejissor artıq 40 ildir Daşkənd teatrında ölməz əsərlərə səhnə həyatı verir. Özbəkistan Bəstəkarlar İttifaqının sədri Rüstəm Abdullayev bildirib ki, Daşkəndə gəlməmişdən əvvəl F.Səfərov 14 il Azərbaycan Dövlət Opera və Balet Teatrının baş rejissoru işləyib.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev yubilyarı təbrik edərək bildirib ki, Firudin Səfərov öz istedadı ilə Azərbaycan və özbək xalqları arasında sənət körpüsü yaradıb. Diplomat diqqətə çatdırıb ki, indiyədək Firudin Səfərov Bakı və Daşkənd teatrlarında 70-dən artıq operaya quruluş verib. Üzeyir Hacıbəylinin "Koroğlu", "Leyli və Məcnun", Vasif Adıgözəlovun "Natəvan" operaları onların arasındadır. Hüseyn Quliyev yubilyara səfirliyin fəxri fərmanı və "Qarabağ xanəndələri" albomunu təqdim edib.

Özbəkistandakı Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin sədri Firdovsi Hüseynov Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun yubilyara təbrik məktubunu oxuyub.

Tədbirdə Firudin Səfərova diplomlar, Özbəkistanın milli geyimi və digər hədiyyələr təqdim olunub.

Sonra Firudin Səfərovun səhnələşdirdiyi Cüzeppe Verdinin "Aida" operası nümayiş etdirilib.

## TƏQVİM — 20-22 noyabr

### Azərbaycan

**20 noyabr 1910** – Yazıçı Məmmədəli Hüseyn oğlu Tarıverdiyev (1910 - 24.09.1985) Ordubad rayonunun Dəstə kəndində doğulub.

**20 noyabr 1930** – Aktyor Gündüz Abbasov (1930-1995) anadan olub. "Onun böyük ürəyi", "Bir qalanın sirri", "Bizim küçə", "Telefonçu qız", "Dədə Qorqud" və s. filmlərdə çəkilib.

**20 noyabr 1930** – Ədəbiyyatşünas, publisist, professor, Əməkdar elm xadimi Qulu Qasım oğlu Xəlilov (1930-1995) anadan olub.

**20 noyabr 1935** – Xanəndə, Xalq artisti Qədir Çərkəz oğlu Rüstəmov (1935-2011) Ağdam rayonunda anadan olub.

**20 noyabr 1975** – Bakıda Üzeyir Hacıbəylinin ev-muzeyi açılıb.

**20 noyabr 1991** – Erməni silahlı qüvvələri Qarabağ müharibəsində Azərbaycana qarşı ən böyük terror aktını həyata keçiriblər. Xocavənd rayonunun Qarakənd kəndinin səmasında içərisində Azərbaycanın yüksək vəzifəli dövlət və hökumət rəsmilərinin olduğu "Mi-8" vertolyotu raketlə vurulub. Vertolyotda olan 22 nəfərin hamısı həlak olub.

**21 noyabr 1926** – Ədəbiyyatşünas, yazıçı-publisist Nadir İsmayıl oğlu Vəlixanov (1926-1995) Şuşada anadan olub. Uşaq və yeniyetmələr üçün hekayə və povestlərin müəllifidir.

**22 noyabr 1933** – Yazıçı-jurnalist Firudin Balakişi oğlu Ağayev (1933-1995) Lerik rayonunda doğulub. Əsərləri əsasında "Skripkanın sərgüzəşti", "İşarəni dənizdən gözləyin" və s. filmlər çəkilib.

**22 noyabr 1922** – Böyük bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Fikrət Məşədi Cəmil oğlu Əmirov (1922-1984) Gəncədə doğulub. Simfonik muğam janrının yaradıcısı ("Şur", "Kürd-Ovşarı", "Bayatı-Şiraz" və s.), "Min bir gecə" baleti, "Sevil" operası, "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu" və s. əsərlərin müəllifidir. "Böyük dayaq", "Mən ki gözəl deyildim" və s. filmlərə musiqi yazıb.

**22 noyabr 1922** – Xalq yazıçısı Hüseyn Abbas oğlu Abbaszadə (1922 - 12.12.2007) Bakıda anadan olub. Kitabları: "General", "Ləpədöyəndə", "Burulğanlar" və s.

**22 noyabr 1933** – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (1933 - 12.7.2006) Şəkidə doğulub. "Sən niyə susursan?", "Onun böyük ürəyi" və s. filmlərin quruluşçu operatoru olub. "Qatır Məmməd", "Tütək səsi", "İstintaq", "Ad günü", "Ölsəm, bağışla", "Otel otağı", "Həm ziyarət, həm ticarət" və s. filmlərə quruluş verib.

**22 noyabr 1938** – Xalq artisti Həsən Ağaməmməd oğlu Məmmədov (1938 - 26.8.2003) Salyan rayonunda anadan olub. "Böyük dayaq", "Bir cənub şəhərində", "Gün keçdi", "Yeddi oğul istərəm", "İstintaq", "Axırıncı aşırım" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**22 noyabr 1940** – Müğənni, skripkaçı, Əməkdar incəsənət xadimi, professor Rauf Zülfüqar oğlu Adıgözəlov (1940 - 29.6.2002) anadan olub.

**22 noyabr 1949** – Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sumqayıta şəhər statusu verilib. Xəzər sahilində yeni şəhərin salınması 40-cı illərdə kimya və metallurgiya zavodlarının inşası ilə başlamışdı.

**22 noyabr 1950** – Bəstəkar, Əməkdar incəsənət xadimi Cavanşir Rəhim oğlu Quliyev Şəkidə doğulub. Simfonik əsərlər, tamaşalara, filmlərə ("Fəryad", "Qəm pəncərəsi" və s.) musiqilər yazıb.

### Dünya

**20 noyabr** Dünya uşaq günüdür (Universal Children's Day). BMT Baş Assambleyası tərəfindən təsis edilib. 1959-cu ilin 20 noyabrında "Uşaq hüquqları Bəyannaməsi", 1989-cu ilin həmin günündə isə "Uşaq hüquqları Konvensiyası" qəbul olunub.

**20 noyabr 1890** – Amerika aktyoru Robert Armstronq (Robert Armstrong, 1890-1973) anadan olub.

**20 noyabr 1925** – Məşhur rus balerinası, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Mayya Plisetskaya (1925 – 2.5.2015) anadan olub. Uzun illər Rusiya Böyük Teatrının prima-balerinası olub.

**20 noyabr 1927** – SSRİ Xalq artisti Mixail Ulyanov (1927 - 26.3.2007) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Karamazov qardaşları", "Qaçış", "Voroşilov nişançısı".

**21 noyabr** "Dünya televiziya günü"dür. 1996-cı il noyabrın 21-də BMT-də ilk dünya televiziya forumunun keçirilməsi ilə bağlı təşkilatın Baş Assambleyası tərəfindən (17 dekabr 1996) təsis edilib.

**21 noyabr 1694** – Fransız mütəfəkkiri, şair, yazıçı-dramaturq, tarixçi Fransua-Mari Volter (Fransua-Mari Arue François-Marie Arouet; 1694 - 30.5.1778) anadan olub. Əsərləri: "Edip", "Brut", "Sezar", "Zadiq və ya tale", "Mikromeqas", "Kandid".

**22 noyabr 1869** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1947) laureatı Andre Pol Qiyom Jid (Andre Gide, 1869-1951) anadan olub.

**22 noyabr 1916** – Amerika yazıçısı Cek London (Jack London - John Griffith Chaney, 12.1.1876 - 1916) vəfat edib.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 21-23 noyabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küçəsi 95)**

| | | |
|---|---|---|
| 21 noyabr | Ə.Bədəlbəyli – "Qız qalası" (balet) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 22 noyabr | Ç. Aytmatov - "Manqurt" | 19.00 |
| 23 noyabr | C.Məmmədquluzadə - "Ölülər" | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küçəsi 8)**

| | | |
|---|---|---|
| 23 noyabr | E.Sabitoğlu, V.Kolmanovski - "Bir dəfə Bağdadda" (rus dilində) | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küçəsi 72)**

| | | |
|---|---|---|
| 23 noyabr | T.Vəliyeva - "Cəza" | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər prospekti 36)**

| | | |
|---|---|---|
| 23 noyabr | V.İlyuxov - "Oyaq gözəl" | 12.00<br>14.00 |
| | V.İlyuxov - "Oyaq gözəl" (rus dilində) | 16.00 |

**Heydər Əliyev Sarayı (Bülbül prospekti 35)**

| | | |
|---|---|---|
| 21 noyabr | "jAzzeri Bands &Art" adlı konsert | 19.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küçəsi 2)**

| | | |
|---|---|---|
| 21 noyabr | Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri Bədii rəhbər və baş dirijor Teymur Göyçayev | 19.00 |
| 22 noyabr | Əməkdar incəsənət xadimi, bəstəkar Elmira Nəzirovanın 90 illiyinə həsr olunmuş xatirə gecəsi. Səid Rüstəmov adına Xalq çalğı alətləri orkestri | 19.00 |

№85 (1575)
21 noyabr 2018
www.medeniyyet.az




# "Start"ın sonu

## Beynəlxalq qısa filmlər festivalı başa çatdı

əvvəli səh. 1-də

Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsinin müdiri Cahangir Məmmədov Azərbaycan kinosunun 120 illiyi çərçivəsində çoxsaylı tədbirlərin keçirildiyini diqqətə çatdırdı, yubiley ilində IX "START" Beynəlxalq Qısa Filmlər Festivalının təşkil edilməsinin əhəmiyyətini vurğuladı.

Vaxtilə bu festivalın münsiflər heyətində yer aldığını xatırladan Mədəniyyət Nazirliyinin Filmlərin qeydə alınması, təbliği və yayımı sektorunun müdiri Cəmil Quliyev ildən-ilə həm yerli, həm də əcnəbi gənclərin festivala marağının artdığını dedi.



Festivalın direktoru Fehruz Şamıyev beynəlxalq və yerli müsabiqə proqramında "Qızıl nar" uğrunda 30 ölkədən 100 filmin mübarizə apardığını bildirdi, hər iki müsabiqənin jürisinə minnətdarlıq etdi. Bildirdi ki, beynəlxalq müsabiqə (72 film) üzrə filmləri Ayaz Salayev, Zəhra Bədəlbəyli (hər ikisi Azərbaycan), Kambuzia Partovi (İran), Gülbara Tolomuşova (Qırğızıstan), Tobias Büxner (Almaniya) qiymətləndiriblər. Yerli müsabiqə (28 film) bölməsinin münsifləri Mirbala Səlimli, İlqar Fəhmi və Cavid Təvəkkül olub.

Daha sonra qaliblərin adları açıqlandı və mükafatlar təqdim edildi.

Beynəlxalq müsabiqədə "Qızıl nar" mükafatı "Ən yaxşı bədii film" nominasiyasında türkiyəli rejissor Onur Yağızın "Torpaq" filminə verildi. "Ən yaxşı sənədli film" üzrə iranlı rejissor İman Behruzinin "Əsl məhəbbət", "Ən yaxşı animasiya filmi" olaraq almaniyalı rejissor Conatan Şvenqin "Daşqın" filmi mükafatlandırıldı. Rusiyalı rejissor Nataliya Konçalovskaya "Bahar" filminə görə "Münsiflər heyətinin xüsusi mükafatı"na layiq görüldü.

Yerli müsabiqənin qalibləri isə "Ən yaxşı bədii film" üzrə Pərviz Gülməmmədovun "Oğul", "Ən yaxşı sənədli film" üzrə Emil Əlinin "Adam", "Ən yaxşı rejissor" üzrə Orxan Adıgözəlovun "Bir saniyə", "Ən yaxşı ssenari" üzrə Fərid Kərimin "Sonar", "Ən yaxşı operator" üzrə Elvin Əhmədoğlunun "Yaddaş" filmi seçildi.

Qeyd edək ki, festival 35 yaşadək rejissorların maksimum 35 dəqiqəlik qısametrajlı filmlərinin müsabiqəsini və nümayişini nəzərdə tutur. Bu il festivala 45 ölkədən 490 qısametrajlı film təqdim olunmuş, Təşkilat komitəsinin təyin etdiyi seçim komissiyasının qərarına əsasən 100 film müsabiqə mərhələsinə keçmişdi.

**Fariz HÜSEYNOV**

# Heydər Əliyev Sarayında "Saz-söz axşamı"

Dekabrın 4-də Heydər Əliyev Sarayında tanınmış aşıqların iştirakı ilə "Saz-söz axşamı" keçiriləcək. Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalı və Azərbaycan Aşıqlar Birliyinin birgə təşkilatçılığı ilə keçiriləcək tədbirdə əsrlərin sınağından çıxan, ruhumuza hopan, sazın tellərində yaşayan aşıq musiqisi təqdim olunacaq.

Konsert proqramında Mahmud Göyçəli, Əli Quliyev, Ədalət Dəlidağlı, aşıq Samirə, aşıq Əli, Elməddin Məmmədli, Şəhriyar Qaraxanlı, Babək Şakirli, Kəmalə Qubadlı, Qələndər Zeynalov, Nəbi Nağıyev, Ağamurad Şirvanlı, Ramin Qarayev, Nargilə Mehdiyeva, Babil Faxralı, Gülarə Azaflı, Telli Borçalı, Haşım Qubalı, Gözəl Kəlbəcərli, Əli Pənahoğlu, Vədud və Cəfər Xakpur, Səlim Göyçəli, Duman Kəlbəcərli, İlham Aslanbəyli, Solmaz Kosayeva, Avdı Musayev, Şaiq İncəli, Altay Məmmədli, Nazim Quliyev, Umbay Axundov və "Laçın", "Koroğlu", "Çeşmə", "Misri" aşıqlar qrupları iştirak edəcəklər.

# London səhnəsində "Leyli və Məcnun"un konsert təqdimatı

Dünya şöhrətli muğam ifaçısı, Xalq artisti Alim Qasımov və qızı, Əməkdar artist Fərqanə Qasımova Londondakı "Sadlers Wells" Teatrında konsert proqramı ilə çıxış ediblər.



Noyabrın 13-dən 17-dək nümayiş olunan teatrlaşdırılmış konsert proqramı xoreoqraf Mark Morris tərəfindən Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasına uyğunlaşdırılıb.

Mark Morrisin rəqs qrupunun və "İpək Yolu" ansamblının qatıldığı konsertdə Alim Qasımov və Fərqanə Qasımovanın ifaları sürəkli alqışlarla qarşılanıb.

# Azərbaycan musiqisi Amerikada

## İfaçılarımız "Carnegie Hall"da çıxış ediblər

ABŞ-ın Florida ştatında fəaliyyət göstərən Azərbaycan-Amerika Beynəlxalq Mədəniyyət Assosiasiyası tərəfindən görkəmli bəstəkar Cövdət Hacıyevin xatirəsinə həsr olunmuş "Florida keys" beynəlxalq musiqi yarışması keçirilib.

Müsabiqədə ölkəmiz də uğurla təmsil olunub.

Müsabiqədə kiçik yaş qrupunda Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbi Fortepiano şöbəsinin V sinif şagirdi Münəvvər Alıyeva parlaq çıxışı ilə fərqlənərək münsiflər heyətinin qərarı ilə birinci yerə, məktəbin məzunu, Prezident təqaüdçüsü Cavid Yusifzadə isə professional yaş qrupunda birinci yerə və münsiflər heyətinin qərarı ilə "Amerika bəstəkarı əsərinin ən yaxşı ifaçısı" adına layiq görülüb.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin C.Hacıyev adına 3 nömrəli 11 illik Musiqi məktəbinin vokal ixtisası üzrə X sinif şagirdi Məhəmməd Məmmədov və "Renesans" xoru da öz nominasiyaları üzrə birinci yerə layiq görülüblər.



Qaliblərin mükafatlandırma mərasimi və qala-konsert noyabrın 17-də "Carnegie Hall"da baş tutub. Müsabiqənin laureatları Vyana şəhərində ustad dərslərində və "Mozart's House"da konsertdə iştirak etmək imkanı əldə ediblər.

Müsabiqənin təşkilatçısı Azərbaycan fortepiano məktəbinin tanınmış nümayəndəsi və təbliğatçısı, Cövdət Hacıyevin qızı Pərvin Muradovadır. O, Azərbaycan-Amerika Beynəlxalq Mədəniyyət Assosiasiyası yanında təhsil və mədəniyyət komitəsinin sədridir. Layihə assosiasiyanın prezidenti Töhfə Eminova, pianoçu Key Lenq, Çin pianoçusu, Nyu-York musiqi festivalının münsiflər heyətinin üzvü Vivian Fanq Liunun köməyi ilə gerçəkləşib.

Müsabiqənin məqsədi Azərbaycanın musiqi mədəniyyətinin təbliği, gənc istedadların üzə çıxarılması və tanıdılmasıdır. Bu da onlara Nyu-Yorkun məşhur "Carnegie Hall"un səhnəsində çıxış etməyə imkan yaradır.

Müsabiqəyə bu ilin əvvəlində start verilib, ifaçılar iştirak üçün öz çıxışlarını onlayn təqdim ediblər. Ümumilikdə müsabiqəyə 15 ölkədən və ABŞ-ın 5 ştatından 70-ə yaxın iştirakçı qatılıb. 5-23 yaş arası iştirakçılar fortepiano və simli alətlər, 5-32 yaş arası iştirakçılar ansambl və vokal nominasiyaları üzrə yarışıblar.

# Gənc pianoçu beynəlxalq müsabiqənin qalibi olub

Noyabrın 12-dən 18-dək Avstriyanın paytaxtı Vyanada keçirilən beynəlxalq müsabiqədə həmyerlimiz Abuzər Manafzadə piano üzrə 17 yaşdan yuxarı ifaçılar kateqoriyasında Qran-pri mükafatını qazanıb.



Amerika, Avropa və Asiyadan 200-dən çox musiqiçinin iştirakı ilə keçirilən müsabiqədə 36 yarımfinalçı içərisindən seçilən yeddi ifaçı finala çıxıb. A.Manafzadə beynəlxalq münsiflər heyəti tərəfindən ən yüksək qiymətə layiq görülərək müsabiqənin qalibi olub.

Abuzər Manafzadə tərəfindən bəstələnən, balaban və simfonik orkestr üçün ilk dəfə yazılmış konsertin premyerası iki həftə əvvəl ABŞ-ın Kaliforniya ştatının Monterey şəhərində təqdim edilib və musiqi tənqidçiləri tərəfindən yüksək rəylər alıb. Sənət həyatına pianoçu, bəstəkar və dirijor olaraq davam edən gənc musiqiçi hazırda dünyanın məşhur musiqi təhsili ocaqlarından olan Vyana Musiqi və Səhnə Sənətləri Universitetində dirijorluq təhsili alır. Eyni zamanda Lints şəhərindəki Anton Brukner Universitetində piano ixtisası üzrə magistratura təhsilini davam etdirir.

# "Abşeron nağılı"

## Lüksemburqda azərbaycanlı rəssamın fərdi sərgisi

Ölkəmizin Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyi və Lüksemburqda fəaliyyət göstərən "Qarabağ" Azərbaycan Mədəniyyət Assosiasiyasının birgə təşkilatçılığı ilə rəssam Anar Hüseynzadənin "Abşeron nağılı" adlı fərdi sərgisi təşkil olunub.

"Qarabağ" Azərbaycan Mədəniyyət Assosiasiyasının informasiya mərkəzində keçirilən tədbirdə çıxış edən səfir Fuad İsgəndərov ölkəmizin mədəniyyət və incəsənətindən söz açıb, rəssam haqqında məlumat verib.



Bildirilib ki, A.Hüseynzadə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasını bitirib. Əsərləri müxtəlif ölkələrdə sərgilənib və şəxsi kolleksiyalarda saxlanılır. Rəssamın ilk fərdi sərgisi 2014-cü ildə təşkil olunub. Onun "Qədim şəhər" əsəri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən 2007-ci ildə BMT-nin Cenevrə bölməsində yaradılan "Azərbaycan otağı"na təqdim edilib.

Rəssamın əsərlərində Abşeron, Bakı, İçərişəhər mövzuları, eləcə də sadə insanların portretləri və fəlsəfi mövzular rənglərin dili ilə təqdim olunur.

Lüksemburq "Qarabağ" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Lea Linster mərkəzin fəaliyyətindən bəhs edib, burada azərbaycanlı rəssamların sərgilərini təşkil etməkdə maraqlı olduqlarını deyib.

Tədbir iştirakçıları sərgi ilə tanış olaraq əsərlərlə bağlı təəssüratlarını bölüşüblər.

Mədəniyyət Nazirliyinin kollektivi Biləsuvar Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi Günaydın Əhədovaya atası

**Fərhad Xəlilbəylinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

* * *

Üzeyir Hacıbəylinin ev-muzeyinin kollektivi muzeyin əməkdaşı Haqverdi Əliverdibəyliyə bacısı

**Nailə xanım Əliverdibəylinin**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

* * *

Azərbaycan Mətbuat Şurası Gürcüstanda Azərbaycan dilində nəşr olunan "Gürcüstan" qəzetinin redaktor müavini, bu ölkənin Əməkdar jurnalisti

**Elman Hüseyn oğlu Kələyevin**

vəfatı ilə bağlı mərhumun doğmalarına, yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

# Bakıda Polşa filmləri nümayiş olunacaq

Noyabrın 22-dən 28-dək Bakıda 3-cü "Vistula" Polşa filmləri festivalı keçiriləcək. Festival çərçivəsində tamaşaçılar polşalı rejissorların "Varşava döyüşü. 1920", "Gecə danışıqları", "Ədalətli", "Şəhər 44", "Sevgi vergisi" və digər filmləri izləyə biləcəklər.

"Landmark"da hər gün saat 19-da başlanacaq seanslarda ekran əsərləri ingilis və rus altyazıları ilə göstəriləcək. Giriş sərbəstdir.

# Gənc kinematoqrafçının layihəsi mükafat qazanıb

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən Gənc Sinemaçılar Klubunun üzvü Rüfət Kərimzadənin "Qurd" kinolayihəsi 8-ci Malatya Beynəlxalq Film Festivalı çərçivəsində keçirilmiş film platformasının ssenarilərin inkişafına dəstək mükafatını qazanıb.

Kinostudiyadan bildirilib ki, film platforması Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və "Azərbaycanfilm"in əməkdaşlığı ilə reallaşıb.

# Paytaxtımızda tanqo festivalı

Argentinanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə noyabrın 16-dan 19-dək Bakıda Tanqo festivalı keçirilib. Tədbirin məqsədi tanqoya marağı artırmaqdır.



İkinci dəfə reallaşan festival çərçivəsində "Landmark" hotelində Argentina, Gürcüstan və Türkiyədən tanqo ustalarının iştirakı ilə ustad dərsləri də təşkil edilib.

Argentina tanqosu gecəsində – milonqa-şouda istedadlı rəqqaslar tanqonun bütün gözəlliyini nümayiş etdiriblər. Ölkəmizi İlham Osmanov və Əlfiyə Sultanova, Emil və Lalə Gözəlovlar, Zaur Ramazanov və Lenay Seyidəlizadə cütlükləri təmsil ediblər. Rəqqasların coşqun rəqsləri böyük maraqla qarşılanıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5178
**Sifariş:** 3523
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.